*Ədalət Əroğlu*

# *OYANAN RUHLAR...*

*Sumqayıt – 2021*

***Redaktor:* Miraslan Rasim**

*Qızıl Qələm" Media mükafatı laureatı AJB-nin üzvü, Qabaqcıl Maarif xadimi*

***ƏDALƏT ƏROĞLU***
***Oyanan ruhlar***

*"Azəri" nəşriyyatı, 2021, 168 səh.*

$$D\frac{525000-830}{880-09}M$$

***Kitab* Vətənimiz uğrunda canlarından keçmiş Şəhidlərimizə və Qazilərimizə ithaf olunmuşdur.**

*Ədalət Əroğlu Azərbaycan ədəbi mühitində özünəməxsus dəst-xətti olan, sayılıb-seçilən şairlərimizdəndir.*

*Əslən Cəbrayıl rayonunun Hovuslu kəndindən olan şair uzun illərdir ki, Sumqayıt şəhərində yaşayıb-yaratmışdır. İxtisasca hüquqşünasdır. AJB-nin üzvüdür.*

*"İçimizdə yurd adlı yaramız var", "Sözün yurd ağrısı", "Turan harayı", "İçimizdə yurd adlı yaramız var"(təkrar nəşri) şeirlər kitabından sonra bu kitab şairin oxucularla beşinci görüşüdür.*

*Digər kitabında olduğu kimi, bu kitabda da yurd həsrəti, Vətən sevgisi, ana məhəbbəti, el-oba məhəbbəti kitabda toplanmış və dolğun şəkildə təsvir olunmuşdur.*

*İnanırıq ki, şairin "Oyanan ruhlar" kitabı da Ə.Əroğlu oxucularına daha böyük töhfə olacaq.*

*«Azəri» nəşriyyatı 2021,*




Yaddan çıxarmayaq müqəddəsləri,
Qaraman Ocağı, Şıx baba Piri.
Tanrım bəxş eyləmiş Çələbiləri,
Hovuslu kəndimdi o, ana yurdum.

## Ön söz əvəzi
## MÜASİR POEZİYAMIZ
## ƏDALƏT ƏROĞLU

Ədəbiyyata, sənət aləminə aydın bir ideya ilə gələn Ədalət İzzət oğlu Qafarovun (Əroğlu) yaradıcılığının müəyyən hissəsi vətənpərvərlik mövzusunda yazdığı şeirlər təşkil edir. O, özünə məxsus məntiqi dəlillər əsasında erməni faşizminə qarşı mərd oğullarımızın qəhrəman mübarizəsini əks etdirən şeirləri ilə oxucu rəğbətini qazanan şairlərimizdəndir.

İlhamlı şeirləri ilə göz və işıq saçan şair qəhrəman oğullarımız haqqında tarix yazmağa çalışır.

***İlhamım göz açıb şeirlərimdə,***
***Misralar söz açıb, şeirlərimdə,***
***Sözüm işıq saçıb şeirlərimdə,***
***Bir tarix yazırsan, ay İzzət oğlu.***

Ə.Əroğlunun Vətən müharibəsi qəhrəmanlarına, xüsusən, torpaqlarımızın azad olunması uğrunda canlarını qurban vermiş ayrı-ayrı igid şəhidlərimizə həsr etdiyi şeirlərini həyacansız, ürək ağrısız oxumamaq mümkün deyil. Bu şeirlərdə şair yüksək insani hiss və həyacanla yanaşı misilsiz vətənpərvərlik və fədakarlıq nümunəsi yarada bilmişdir. Qırx dörd günlük ikinci Qarabağ müharibəsi şanlı ordumuzun qələbəsi ilə başa çatsa da, müharibədən sonra canları və qanları bahasına bu torpaqların azad olunması uğrunda şəhid olan igidlərimizin və qəhrəman qazilərimizin surətini yaratmaq onun yaradıcılığının mühüm hissəsini təşkil edir. Şairin böyük qələbəyə aparan 2016-cı il aprel döyüşlərinin və 2020-ci il Vətən müharibəsi qəhrəmanlarından biri

şəhid kapitan Hətəmxan Quliyevə həsr etdiyi şeiri çox təqdirəlayiqdir.

***Vətən dar gündəydi, qalxdı ayağa,***
***Bir qəhrəman oldu, döndü dayağa,***
***Sarıldı silaha, üçrəng Bayrağa,***
***Döyüşə atıldı igid Hətəmxan.***

***Aprel döyüşünə sən şahid oldun,***
***Zəfər döyüşündə sən Şəhid oldun.***
***Əzmkar ruhunla sən vahid oldun,***
***Döyüşə atıldı igid Hətəmxan.***

Şairin II Qarabağ müharibəsində bir sıra yaşayış məntəqələrimizin azad olunması uğrunda döyüşlərdə qəhrəmanlıq göstərərək şəhid olmuş igid döyüşçü Asim Quliyevə həsr etdiyi şeiri mövzu baxımından təsirli və ürək dağlayandır.

***Bilmirəm, necə başlayım sözümü,***
***Bu bəd xəbər kor elədi gözümü,***
***Kimsə söndürməz yanan közümü,***
***Yaddan çıxmaz Şəhidlərim, Asimim.***

***Qırx dörd günə bitdi sənin bu davan,***
***İndi fəxr eyləyir sənlə el, oban,***
***Yenə evinizdə yanacaq soban,***
***Yaddan çıxmaz Şəhidlərim, Asimim.***

Ə.Əroğlunun "Bilmədim", "Xocalı naləsi", "Unutmayaq, o qara günü”, "Türkün səsi", "Əsirlərə", "Tənha şəhid anasına", "Amandır", "Oyanan ruhlar", "Odlar yurdum Azərbaycan gözəldi", "Şəhidlik zirvəsi",

"Şəhid bacısına" və sair şerlərində qəhrəman oğullarımızın igidliyi, vətənpərvərliyi öz əksini tapır. Şairin müzəffər ordumuzun sıralarında vuruşan igid döyüşçülərimizə həsr etdiyi bütün şeirləri onların bədii dəyərini azaltmadan deməliyəm ki, qəhrəman döyüşçü surəti yaratmaq yolunda atılan ilk addımlardandır. Bu şeirlərdə torpaqlarımızın azad olunması uğrunda mübarizədə hünərlər göstərən qəhrəman döyüşçülərimizin ümumiləşdirilmiş bədii surətləri yaradılmışdır.

Ədalət Əroğlu müasir dövrdə qələmə aldığı digər şeirlərində də oxucunu düşündürən ədəbi proseslərə toxunmaqla eyni zamanda bunlara cavab axtarmağa çalışan şairlərimizdəndir. Öz xalqına, Vətəninə bağlı və yüksək ideyalar şairi cəmiyyətdə baş verən neqativ hallara qarşı da barışmaz mövqedən çıxış edərək bəzən ruhdan düşərək ümidini Allaha bağlamaqla insanları ədalətli olmağa çağırır. Bu onun zəif cəhəti sayılmamalıdır. Çünki bu gün cəmiyyətimizdə çox təəsüf ki, haqq sözü, həqiqəti deməyə, bu mövzularda yazmağa çalışan qələm sahiblərimiz çox zaman haqsız qınaq obyektinə çevrilirlər. Bütün bunlara baxmayaraq şairin həyata baxışları nikbindir. Həqiqi sənətkar və bir vətəndaş kimi yazıb-yaratmaq, həyat eşqi, cəmiyyətin həyatında fəal iştirak etmək istəyi şairin yaradıcılıq xüsusiyyətlərinin əsasını təşkil edir. Şair həmişə ictimai və ədəbi proseslərdə mövcud olan yenilikləri görür və dəyərləndirməyi bacarır. Onun son aylarda yazdığı "Gəlişimiz.., enişimiz var", "Nədir əzabım", "Gəl, Ədalət işığına", "Yaman çətin imiş", "Ədalətin sözü var", "Ay, günəşim, ay, ulduzum", "Yanan deyiləm", "Allah adamı", "Dərdli adamlar", "Ədalət carçısı, sözüyəm şair", "Saf eşqimə görə", "Şükür eylə...", "Fağıra bir bax", "Ana dilim", "Unutma" və sair şeirlərini

oxuyarkən hər şeydən əvvəl sadə, aydın bir dildə yazan ustad şair olduğu bir daha diqqəti cəlb edir. Təvazökarlıqdan uzaq olan şair özünün yaradıcılığını damlaya, şair qardaşı Nüsrət İzzət oğlu Qafarovun yaradıcılığını isə dəryaya bənzədir:

***Mən damcıyam, qadaşım dərin dərya,***
***Həmin o dəryanın damlasıyam mən.***
***Həmişə yazardı ulu vətəndən,***
***İnci yaradardı söz sənətindən.***

Ədalət Əroğlu şeirinin mövzu dairəsi geniş və rəngarəngdir. Onun şeirlərində hər şeyə qalib gəlməyə çalışan bir nikbinlik vardır. Şair həmişə müasir cəmiyyətdə gedən proseslərlə maraqlanmaqla onların həlli yollarını tapmağa çalışır.

Həyatının çiçəklənən dövrünü yaşayaraq yazıb-yaradan istedadlı şairimizə daha böyük yaradıcılıq uğurları arzu edirəm.

***Aprel Məmmədov***
***BDU və AMİ-nun məzunu,***
***Tarix müəllimi***

## YAŞA, BAŞ KOMANDAN!

Bu Vətən səninlə daim öyünür,
Sabaha ümidlə, ürək döyünür,
Parlaq qələbədən, düşmən üyünür,
Yaşa, Baş Komandan! Yaşa, İgidlər!

Qələbə şəninə, ellər oynasın,
Muğanlar oynasın, Millər oynasın,
Yağsın nur yağışı, sellər oynasın,
Yaşa, Baş Komandan, Yaşa, İgidlər!

Çox ağır illəri ötürdün, Vətən!
Mübariz İgidlər yetirdin, Vətən!
Düşmənin arzusun bitirdin, Vətən!
Yaşa, Baş Komandan, Yaşa, İgidlər!

Bu ürək çırpınır, görün nə vaxtdır?
Şəhidlər öləmməz, ruhu sabahdır,
Sevinci bölməmək, özü günahdır,
Yaşa, Baş Komandan! Yaşa, İgidlər!

Qəlbin, gözün gülsün, Şəhid Anası!
Danış, sözün gülsün, Şəhid Anası!
Əl çal, üzün gülsün, Şəhid Anası!
Yaşa, Baş Komandan! Yaşa, İgidlər!

Ölkəmə ruh verdin, aləm görünür,
Düşmənin üzündə ələm görünür,
Düşmənin bayrağı, yerdə sürünür,
Yaşa, Baş Komandan! Yaşa, İgidlər!

Füzuli, Cəbrayıl, Şuşa, Qubadlı,
Bir tarix yazırsan Qarabağ adlı,
Ellərim sevincdən toylu, büsatlı,
Yaşa, Baş Komandan! Yaşa, İgidlər!

Əroğlu, ilhamın çağlayır, daşır!
Komandan önündə düşmənlər, çaşır.
Müzəffər Orduma Zəfər yaraşır,
Yaşa, Baş Komandan! Yaşa, İgidlər!

## AZƏRBAYCANA

Vətənim böyükdür, Uludur-Ulu,
Haqqa gedir, çalışdığı bu yolu,
Bölünüb Arazla, kəsilib qolu,
Təbrizim ürəkdir, Azərbaycana.

Millətim bölünüb param-parçadır,
Arazla bölünüb, kəsik xalçadır,
Qarabağ əsirdir, ürək parçadır,
Əsirlik yaraşmır Azərbaycana,

Bir günəş bəs edir, cümlə-cahana,
Bir söz də bəs edir, onu duyana,
Dəniz də çalxalanır, o yan, bu yana,
Xəzərim yaraşır, Azərbaycana.

Bir dünya yaşayır sənin adında,
Cənnətlə qoşadır sənin adın da,
Sözüm də qalacaq elin yadında,
Ədalət payıdır Azərbaycana.

## OYANAN RUHLAR...

Qırx dörd gün yaşadıq, ölüb dirildik,
Ayağa qalxmışdıq, hamı bir idik,
Qaldırdıq bayrağı, uca zirvəyə,
Oyanan ruhlarla canı bir idik.

Burdaydı sitəm də, dərd də bəla da,
Köksündən vurulmuş o gənc bala da,
Kəsilmiş Xan Çinar, dərdli qala da,
Oyanan ruhlarla canı bir idik.

Burdaydı Ziyarət, Qaraman Piri,
Hovuslu kəndimdə Şıx şaman Piri,
Tanrının lütfüdür, böyükdür sirri,
Oyanan ruhlarla canı bir idik.

Əl açıb, mən sənə gəlirəm, Allah,
Baş əyib səcdənə gəlirəm, Allah,
Mən, indi ürəkdən gülürəm, Allah,
Oyanan ruhlarla canı bir idik.

Şəhidlər qanıyla Vətən ucaldı,
Şair də zəfərdən sanki, güc aldı,
Tarmar yurdu görüb, baxıb sozaldı,
Oyanan ruhlarla canı bir idik.

Zirvəli dağlaırın güldü gözləri,
Zülmətdən ayrıldı, güldü üzləri,
Qovdu düşmənləri, o, dinsizləri,
Oyanan ruhlarla canı bir idik.

Bu şanlı döyüşdə biz  nələr gördük,
Düşmənin üzünə sərhədlər hördük,
Qaytardıq yurdları, sevinci böldük,
Oyanan ruhlarla canı bir idik.

Cəbrayıl, Ağdamım, Füzuli, Laçın,
Gəlirəm qoynuna, qəlbimi açım,
Sevindi qardaşım, sevindi bacım,
Oyanan ruhlarla canı bir idik.

Zəngilan, Qubadlı, Kəlbəcərliyəm,
Koroğlu, Babəkəm, həm Həcərliyəm,
Cəsur Türk oğluyam, Vətən dərdliyəm,
Oyanan ruhlarla canı bir idik.

Şuşa qalasına taxılan Bayraq,
Natəvan Vaqifin ruhuna dayaq,
Əroğlu keşikdə dayanıb oyaq,
Üzeyir dühası, qanı bir idik.
Oyanan ruhlarla canı bir idik.

# DÜNYA QOCALMIR

Dünya cavanlaşır, dünya qocalmır,
Dünyanı qocaldan fələk ucalmır,
Hansı insan de, Tanrıdan güc almır?
Vurğunam mən sənin baxışlarına.

Nə yaxşı dünyanı yaratdın, Allah,
Nə yaxşı, yaxşını yaratdın, Allah!
Nə yaxşı dünyamı tanıtdın, Allah,
Vurğunam mən sənin baxışlarına.

Sirli dünyamızda saf baxışın var,
Bilinməyən hələ çox naxışın var,
Dünyanı yuyacaq nur yağışın var,
Vurğunam mən sənin baxışlarına.

Ömür sona çatır, cahan qocalmır,
Dərgahında hər adam da ucalmır,
Bu bəndən Ədalət səndən güc almır?
Vurğunam mən sənin baxışlarına.

## AZƏRBAYCANIM

Mən səninəm, sən isə mənim canım,
Sənsən doğma yurdum, Azərbaycanım.
Damarda çağlayıb axan al-qanım,
Dilimin əzbəri, Azərbaycanım.

Ömrümün günəşi parlayır sənlə,
Qaranlıq gecəm də ağlayır sənlə,
Türk öz soyadını bağlayır sənlə,
Soydaşım, Turanım, Azərbaycanım.

Səhərim açılır azan səsiylə,
Gül və çiçəklərin tər nəfəsiylə,
Yaşadım həyatda eşq həvəsiylə,
Eşqim, məhəbbətim, Azərbaycanım.

Müstəqil dövlətin, qədim arxivi,
Qəhrəmanlar tarixidir, tarixin,
Azıx mağarası sirdir tarixin,
Silinməz bir izsən, Azərbaycanım.

Yüksəlir hər zaman şanım-şöhrətim,
Dövlətlər yanında artıq hörmətin,
Ucalır hər yanda sözün, şöhrətin,
Başımın tacısan Azərbaycanım.

Vətənim böyükdür, uludur, ulu,
Millətim şöhrətlə keçir bu yolu,
Ədalətəm, sənə qurban bu oğlun,
Ədalət carçısı Azərbaycanım.

# İGİD ƏSGƏR

İgid Əsgər, hazır ol, gedək davaya,
Üçrəngli bayrağı qaldır havaya,
Vətənin yolunda sən məğrur dayan,
Dünya da göz yumur qopan ah-vaya.

Düşmən hiyləsilə getməyək bada,
Amandı, torpağı verməyək yada,
Vətən əsgərimə dəyməsin qada,
Dünya da göz yumur qopan ah-vaya.

İgidim hazır ol, Qələbə çalaq,
Bu zəfər eşqinə bir də əl çalaq.
Millətlər içində biz də Ucalaq,
Dünya da göz yumur qopan ah-vaya.

Vətənim bölünüb, paramparçadır,
Qarabağ vətəndə “Qara xalçadır”
Düşmən əsirləri yaman alçaldır,
Dünya da göz yumur qopan ah-vaya.

İgidim, Vətəndən qalma intizar,
Düşmənə birlikdə qazaq biz məzar,
Vətənim olacaq yenə gülüzar,
İzzətoğlu dözməz belə ah-vaya.
Dünya da göz yumur qopan ah-vaya.

## DALĞALANSIN AZƏRBAYCAN BAYRAĞI

Dözürəm, hər dərdə dözün bu ürək,
Hicran dənizində üzən bu ürək.
Yurda dönək, hamı birgə şənlənək,
Sancaq yurda Azərbaycan Bayrağın!

Yollara baxmaqdan gözüm saralıb,
Yurdsuzam, bu dünyam vallah, qaralıb.
Qarabağa gedən yollar daralıb,
Sancaq yurda Azərbaycan Bayrağın!

Ayaq altda qalıb Vətən torpağı,
Bizsiz solub ağacların yarpağı.
Azad edək, o cənnət Qarabağı,
Sancaq yurda Azərbaycan Bayrağın!

Yurdumuzun işğaldadır torpağı,
Yurdu murdarlayır, qan içən yağı.
Vuraq, əzək, məhv edək o yaltağı!
Sancaq yurda Azərbaycan Bayrağın!

Alaq Şuşamızı qoy, görsün hamı,
Cəbrayılı, Fizulini, Ağdamı.
İrəvan, Zəngəzur, qalsın yadamı?
Sancaq yurda Azərbaycan Bayrağın!

## RƏSSAM, BİR ƏSƏR ÇƏK

Rəssam, bir əsər çək, dünya gül açsın,
Dağında ceyranlar, cüyürlər qaçsın,
Günəşim parlasın, nurunu saçsın,
Qadasın alaram, belə dünyanın.

Bir əsər çək, hamı mehriban olsun,
İnsan xoşbəxt, evi çırağban olsun,
Hamının sevincək, gözləri dolsun,
Qadasın alaram, belə dünyanın.

Çaylar lal axsa da, hay-küy salmasın,
Ulduzlar sayrışsın, donub qalmasın,
Çəkdiyin əsərin heç vaxt solmasın,
Qadasın alaram, belə dünyanın.

Haqqını yeməsin, insan insanın,
İnamın itirmə, bilib qananın,
Ağzı qıfıllansın neçə zindanın,
Qadasın alaram, belə dünyanın.

## YAMAN ÇƏTİN İMİŞ...

Yaman çətin imiş,
Yurdsuz yaşamaq,
Sevgisiz yaşamaq,
Ruhsuz yaşamaq.

Yaman çətin imiş,
Torpaqsız qalmaq,
Haraysız qalmaq,
Soraqsız qalmaq.

Yaman çətin imiş,
Vətəni bölmək,
Torpaq uğrunda,
Şərəflə ölmək.

Yaman çətin imiş,
Söz tapıb yazmaq,
Zülmət gecələrdə,
Yollarda azmaq.

Yaman çətin imiş,
Dərdliyə gülmək,
Çıxacaq qarşına,
Qonşuya gülmək.

Yaman çətin imiş,
Düzü yaşamaq,
Ömür talehində,
Yüzü yaşamaq.

## YAŞA, KOMANDAN!

Mən Qurban demişəm, sənə qoyundan,
Qurtardın sən bizi bütün oyundan,
Xəta uzaq olsun, qamət, boyundan,
Yaşa Heydəroğlu, Yaşa, Komandan!

Qələbə sevinci yaşayır hər kəs,
Verdiyin əmrinlə verdin bir nəfəs,
Düşməni Ordumuz edibdir şikəst.
Yaşa Heydəroğlu, Yaşa, Komandan!

## GÖRDÜM

Dağ döşündə bitən gültək təzəydim,
Şaxta gördüm, boran gördüm, qar gördüm,
Qəfəsdə çırpınan quşa bənzədim,
Dünyanı gözümdə yaman dar gördüm.

Düşmən yenə azğınlaşıb, ay dostlar,
Yurdumda dığalar deyirlər "tost"lar,
Quruyub bağlarım, bitib kol-koslar,
"Dərd dağı"nın zirvəsində qar gördüm.

Ədalətəm, qəm-kədərli üzüm var,
Hər könüldə, söhbətim var sözüm var,
Könlüm ağlar, ürəyimdə sözüm var,
Həsrət çəkən bu yurdumu xar gördüm.

## ŞAİR DEYİLƏM Kİ...

Mən şair deyiləm ki,
Ordan, burdan yazıram.
Ruhuma çox söz gəlir,
Mindən birin yazıram.

Şairlik iddiam yox,
Şairlər həyatda çox,
Yazmağa bir söz də yox,
Mindən birin yazıram.

Oxuyub qardaş sözün,
İçimdə yanan közün,
Yarımçıq qalan sözün,
Mindən birin yazıram.

Ədalətəm, anıram,
Yurd oduna yanıram,
Vətən nədir, qanıram,
Mindən birin yazıram.

## BAYRAMINIZ MÜBARƏK!

İşğaldadır  yurdumuz,
Döyüşdədir ordumuz.
Gecə gəlmir yuxumuz,
Bayramınız mübarək!

Yurdumdadır yaramaz,
Dövran belə də qalmaz.
Qələbəyə qaldı az,
Bayramınız mübarək!

Dağılıbdı yuvamız,
Zəhərlənib havamız.
Didərgindi obamız,
Bayramınız mübarək!

Nalə çəkir anamız,
Bağçamızda sonamız,
Bağlı qaldı xanamız,
Bayramınız mübarək!

Uzun yollar keçərəm,
Kəndimə mən köçərəm.
Kəhrizindən içərəm,
Bayramınız mübarək!

Ədalətəm, anıram,
Alışıram, yanıram.
Halıma utanıram,
Bayramınız mübarək!

## KİMƏ GƏRƏKDİR?

Eşqi, məhəbbəti, verib Yaradan,
Onun üzərində, qurulub cahan.
Eşq dəlisi olaq, sevək ey insan,
Sevgisiz bu dünya, kimə gərəkdir?

Dünya yaranıbsa, həyat yaranıb,
Təbiət sevgiylə nura boyanıb.
Qəlblərə axıbdı, məgər dayanıb?
Sevgisiz dünyamız, kimə gərəkdir?

Adamın içində eşqi olmalı,
Dünyaya, həyata sevgi dolmalı,
Hamı da sevgidən ilham almalı
Sevgisiz dünyamız, kimə gərəkdir?.

Ədalət, hər kəsə güvənmə sən də,
Sevgiylə bitibdi, o göy çəmən də,
Salacaq bir gözəl, səni də bəndə,
Sevgisiz dünyamız, kimə gərəkdir?

## NƏDİR, ƏZABIM?

Bir təhər dəyirsən gözümə, dünya!
Baxmaq istəmirəm üzünə, dünya!
Bir dəfə də sən bax, sözümə, dünya!
Nədir, bu günahım, nədir, əzabım?

Əl çəkmir işindən, bu zalım fələk,
Qoymayır boy ata, ucala dilək,
Firtına qoparıb, eyləyir külək,
Nədir, bu günahım, nədir, əzabım?

Alovlandım, yandım bu od tüstünə,
Dəniz coşur, ləpələnir üstümə,
Bu şairi sən özündən küsdümə,
Nədir, bu günahım, nədir, əzabım?

Amandır, Allahım, kömək ol bizə,
Bir xəta gəlməsin zəmanəmizə,
Dünyada çatacaq, ədalət bizə?!
Nədir, bu günahım, nədir, əzabım?

İzzətoğlu gör, nələri daşıyır?
Dərdin yazır, qəm-kədəri daşıyır,
Bir həyat eşqi var, hələ yaşıyır,
Nədir, bu günahım, nədir, əzabım?

## ÖTƏN İLLƏRİM

Bu həyat deyilən özü, hardadı?
Dünyanın insaflı gözü, hardadı?
Əyrisi əyridi, düzü hardadır?
Kədərlə ötüşdü illərim, Allah.

Sanki yaşayıram dərdli dünyada,
Məşəqqətli, küdurətli dünyada,
Günüm keçdi minsifətli dünyada,
Kədərlə ötüşdü illərim, Allah.

Yazılan qanunlar qalıb bir yana,
Düşünən baş gərək, oxuya, qana,
Zülüm olub ömür sürmək insana,
Kədərlə ötüşdü illərim, Allah.

Dünyanın işləri yaman qarışıq,
Ədalət sevdası, zaman yaraşıq,
Sən də heç olmusan duman qarışıq,
Kədərlə ötüşdü illərim, Allah.

## ŞAİR QƏLBİ KÖVRƏK OLUR

Şair qəlbi kövrək olur,
Məclislərdə örnək olur,
Yaxşı şair tək-tək olur,
Toxunmayın şairlərə,

Söz yazırsa, o maraqdır,
Yazdıqları bir mayakdır,
Oxuyana bir dayaqdır,
Şair sözü kəlam olsa.

Dərd, kədərə şərikəm mən,
Söz yazıram gözüm dolur,
Dözəmmirəm bu acıdan,
Göz yaşlarım sel-sel olur,

Gecələri gəlmir yuxum,
Yer üzündən çıxır oxum,
Ərşə qalxır, mənim ruhum.
Dərd əlindən yatmır şair.

İzzətoğlu, yaz incidən,
Qızıl kəlmə, söz-incidən,
Vətən dərdi, qəlb incidən,
Şair qəlbi kövrək olur.

## DÜZLÜKDƏN DANIŞIB YAZMAĞA NƏ VAR?

Düzlükdən danışıb, dolayı yolla,
Kiminsə haqqına girməyə nə var.
Əyrini düz görüb, yaltaqlanmağa,
Düzlükdən danışıb, yazmağa nə var.

Məsləhət verirsən mavi ekrandan,
Kasıba baxmırsan, ay zalım insan.
Məsləhət verməyə axı, a nadan,
Nə olar kasıba insafla baxsan.

Deyirsən soğanı müəllim əksin,
Şagirdlərinə də öyrətsin təlim.
Pambığı becərsin, zəhmətin çəksin.
Gənclərimizi də o etsin təlim.

İnkişaf deyərkən qanım qaraldı.
İşbilməz o adam, səbrimi aldı.
İnkişaf özü də böyük bir işdi.
Milləti aldadan sən "çoxbilmiş"di.

Sözünü deyəndə, bilib sən danış.
Məsləhət, bildiyin o işdən yapış
Millətin yolunda hörmətlə çalış.
Millətə faydalı, sözün qalmamış?!

Ədalət, Vətənim basılmaz qala,
Doğma yurdlarında Bayraq ucala.
Elmdən, təhsildən dünya güc ala.
Çoban yetişdirər qoyun ya davar,
Düzlükdən danışıb, yazmağa nə var?!

## QOCALIRAM

Tapmamışam ədaləti,
Gəzə-gəzə qocalmışam.
Ağrılara, əzablara,
Dözə-dözə qocalmışam.

Sellər qopub sarayımdan,
Dağ diksinib harayımdan,
Hər günümdən, hər ayımdan,
Bezə-bezə qocalmışam.

## ƏDALƏT NƏDİR?

Yalan dəryasında boğulmadınmı?
Hardan da biləsən ədalət nədir?
Qəlbini təmizlə zəmzəm suyunda,
Onda biləcəksən ədalət nədir.

Haqqını yeməyin kasıb fağırın,
Daşıyır ürəkdə dərdin ağırın,
Tanrıya üz tutun, Haqqı çağırın,
Onda biləcəksən, ədalət nədir?

Vicdan ki, pul ilə ölçülən deyil,
Vicdan paltar kimi biçilən deyil,
Ədalət ürəyə köçrülən deyil,
Onda biləcəksən ədalət nədir.

## ƏDALƏTİN SAÇI AĞDI

İllərim soruşdu məndən,
Ağarmış, saçların nədən?
Deyilən söz bir fikirdi.
Ağ saçlar arzu, zikrdi.

Ağ saçlar dönmüş qaradan,
Bəxş etmiş Uca Yaradan.
Naşükür olma, ey cavan.
Ağ saç, qismətdi, Tanrıdan.

Ədalətəm, saçım ağdı,
Vaxtsız başıma qar yağdı,
Ağ saçlar gəlib sonradan.
Razıyam Uca Tanrıdan.

## GƏLİŞİMİZ, ENİŞİMİZ VAR

Gəl, tutma bir əlli, qoca dünyanı,
Dünyaya Tanrıdan gəlişimiz var.
Gözünü tutmasın nəfsin pərdəsi,
Axirət dünyaya dönüşümüz var.

Hardan biləsən ki, ədalət nədir?
Bu həyat özü də bir əfsanədir,
Torpaqdan yarandıq, torpaq da gendir,
Torpağa əbədi enişimiz var.

## NƏSİMİ-650

Fələk, boğub harayımı, səsimi,
Yox sazımın nə pərdəsi, nə simi.
Soyulmuşam səndən betər Nəsimi,
Dərdim böyük, bu ürəyim qan ağlar.

Yara tökdü dilim, "vətən" deməkdən,
Yurdum əsir, nalə çəkim demək mən?
Yatmıram da gecələr qəm yeməkdən,
Dərdim böyük, bu ürəyim qan ağlar.

Bilmirəm, neyləyim, gedim, hayana?
Yazıram ki, yatmışlarım oyana,
Lənət olsun ürəyimi soyana,
Dərdim böyük, bu ürəyim qan ağlar.

Zalım fələk verib yaman dərsimi,
Sökülə sərhəddin, tikanlı simi,
Qıram gərək, bağlı qalan tilsimi,
Dərdim böyük, bu ürəyim qan ağlar.

İzzətoğlu, hər gün düşmən atır, gəl,
Nəsimi də fəryadımda yatır, gəl,
Günəş doğmur, sanki dünya batır, gəl,
Dərdim böyük, bu ürəyim qan ağlar.

## LAL OLDUM

“Romantik şair ol, şeir yaz” -dedin,
Elə bil sən mənə qəbir qaz dedin.
Eşqi-məhəbbətdən sən də yaz dedin,
Dayanıb lal oldum, bir qaya kimi.

De mənə, hardayam, o yurdum harda?
Qalmışam ocaqsız, boranda, qarda.
Bəs sən bilmirsən ki, Vətənim darda?
Dayanıb lal oldum, bir qaya kimi.

Şəhid qatındadır mənim bu yurdum,
Tapdaq altındadır mənim o yurdum,
Dərdimi öz niskilimlə yoğurdum.
Dayanıb lal oldum, bir qaya kimi.

Dağlarda uçuşur qara qarğalar,
Qoynunda gəzişir indi dığalar,
Qəlbimin yarası haçan sağalar?
Dayanıb lal oldum, bir qaya kimi.

Əsirlikdə qalıb neçə insanlar?
Zülmət gecələr də yatmır o canlar,
Səsinə səs verə bilmədim, dağlar,
Dayanıb lal oldum, bir qaya kimi.

İzzətoğlu, doğma yurdu unutma,
Söz deyən dilini əsla qurutma,
Vətənin yasını sakitcə tutma,
Dayanıb lal oldum, bir qaya kimi.

## HƏR ÜZÜNDƏ YAŞAYIRIQ DÜNYANIN

Nə işim var, bu dünyanın işiylə,
Kölgəsində yaşayırıq dünyanın.
İşim yoxdur, baharıyla, qışıyla,
Hər üzündə yaşayırıq dünyanın.

Şair könlüm gör nələri istəyir,
Ürək dərdli, qamətimi dərd əyir,
Dünya daim xəlbirini ələyir,
Hər üzündə yaşayırıq dünyanın.

Qapqaradır dünyamızın zor üzü,
Son qalacaq yerimizdi, gör üzü,
Ədaləti tapacaqdır, hər üzü,
Hər üzündə yaşayırıq dünyanın.

Dərdimi yazıram, öz yaddaşımdır.
Qanlı faciələr göz yaddaşımdır.
Həsrətdən yanıram, köz yaddaşımdır,
Hər üzündə yaşayırıq dünyanın.

Şəhidlər məzarı qan yaddaşımdır,
Dənizim şəhərlə can sirdaşıdır.
Hamımız Qarabağ vətəndaşıdır,
Hər üzündə yaşayırıq dünyanın.

Vətən iztirabı çəkən qardaşım,
Kaş, Vətən yolunda ağrısın başım,
Başına şərabı çəkən sirdaşım,
Hər üzündə yaşayırıq dünyanın.

Vətən keşyini çək, vətəndaşım,
Vətən aşiqiyəm, az deyil yaşım.
Qoru torpağını, yurdu, yurddaşı,
Hər üzündə yaşayırıq dünyanın.

Axı, Vətən bizim, hər bir kəsindir,
Qələbə sədası ürək səsimdir.
Dərdimin çarəsi yurd-Vətənimdir,
Hər üzündə yaşayırıq dünyanın.

## NEYLƏRƏM?

Gözəl qız, bu sevdan öldürür məni,
Sənsiz mən özgə bir yarı neylərəm.
Unutmaram ötüb-keçən günləri,
Sənsiz həyatımda varı neylərəm?

Ayrılıb sən məndən getsən uzağa,
Atsan saf eşqimi oda-ocağa,
Həmin günlərimə göydən daş yağa,
Sənsiz həyatımda varı neylərəm?

Dünyamın gözəli, mələyi sənsən,
Könlümün o gülü, çiçəyi sənsən,
Qəlbimin sevinci, fərəhi sənsən.
Sənsiz həyatımda varı neylərəm?

Dostlarım, hər kəsin olsun sevdası,
Arzusu çin olsun, dolsun sevdası,
Qalmasın kimsənin yarı sevdası,
Sənsiz həyatımda varı neylərəm?

## ARXADA DANIŞIB, GÜLMƏYƏ NƏ VAR?

Boş-boşuna danışırsan niyə, sən?
Başda papaq əsas deyil, biləsən.
Sözün varsa, sözü üzə deyəsən,
Arxada danışıb, gülməyə nə var?

Şeytan olub, insanlara qarışdın,
Qeybət edib, orda-burda danışdın.
Bilirsənmi, günahlarla barışdın...
Arxada danışıb, gülməyə nə var?

Gözündə bir tiri görməyən fələk,
Bu gözəl həyatda edirsən kələk.
Etmə, əməlinlə özünü həlak.
Arxada danışıb, gülməyə nə var?

Mələklər sağında, solunda yazır,
Tanrıya yönələn bir yolumuz var.
İzzətoğlu sözün düzünü yazır,
Arxada danışıb, gülməyə nə var?

# KİTABXANAÇILARA

Dahilərin elmə maraqları var,
Hər kitabın özəl vərəqləri var,
Qaranlıq gecəyə çıraqları var,
Hələ açılmamış sirləri çoxdur.

Elmsiz insanın yoxdur cövhəri,
Bilikdir daima həyat gövhəri,
Toz basıb kitablar, gülən səhəri,
Hələ açılmamış sirləri çoxdur.

Sirri elmdir-dövlətin də, varın da,
Nə qədər oxusan ziyanı yoxdur,
Böyük alimlərin kitablarında,
Hələ açılmamış sirləri çoxdur.

Əslim, nəslim, bu torpaqdan yaranıb,
Hər kitaba maraqlarım var mənim,
Qara tellər, ağ tellərə calanıb,
Ədalətəm, kitablarım var mənim.

## KÖVRƏLTMƏ MƏNİ

Bir süzgün baxışla, yandırıb, yaxdın.
Gözəlim, həsrətə qərq etmə məni,
Gözlərin qəlbimi, yandırıb, yaxır,
Söndürmə eşqimi, kövrəltmə məni.

Bu sevgi qəlbimdə qalxıb göylərə,
Yağıştək yağmışam bitən güllərə,
Adını yazmışam ötən günlərə,
Söndürmə eşqimi, kövrəltmə məni.

Gün doğur, həyata yeni ruh gəlir,
O mavi dənizdən, böyük Nuh gəlir,
Sevən könlümüzə fərəh, ruh yüksəlir,
Söndürmə eşqimi, kövrəltmə məni.

Mələklər yığılsa, hərə bir yana,
Sənin gözəlliyin, od salıb cana,
Bu saf eşqimizə, verək biz məna,
Söndürmə eşqimi, kövrəltmə məni.

Ədalət, tapmazsan o yartək gözəl,
Tanrımın verdiyi, o mələk gözəl,
Sinəmə od salma, gəl sevək, gözəl.
Söndürmə eşqimi, kövrəltmə məni.

## GƏZƏRƏM SƏNİ

Sən mənim sevimli gələcəyimsən,
Parlayan ulduzum, eşq mələyimsən.
Gələcək nəslimin pir nənəsisən.
Hər addım başında gəzərəm səni.

Girmisən qəlbimə ürəyimdəsən,
Sən mənim həmişə gərəyimdəsən.
Bax mənim bu sevən ürəyimdəsən,
Hər addım başında gəzərəm səni.

Küsüb, uzaqlara üz tutub getsən,
Əkdiyim gülləri qoparıb getsən.
İsti ocağını lap atıb getsən,
Hər addım başında gəzərəm səni.

Ədaləti bir gün unudub getsən,
Ağlar qoyub görün, unudub getsən,
Dağı ürəyimə lap vurub getsən,
Hər addım başında gəzərəm səni.

## EY GÖZƏL PƏRİ

Günəşə bənzəyir sənin baxışın,
Qəlbimə nur saçır dərin baxışın,
Dərdimə məlhəmdir sözün-alqışın,
Gözəllər gözəli, ey gözəl Pəri.

Sən könlümün baharısan, yazısan,
Xoş çağımın dinən telli sazısan,
Odlar diyarımın gözəl qızısan
Gözəllər gözəli, ey gözəl Pəri.

Həyatında qaya ollam, daş ollam,
Sevinəndə gözlərində yaş ollam,
Dar günündə dərdinə sirdaş ollam,
Gözəllər gözəli, ey gözəl Pəri.

Dumanlı, çiskinli bir çağam sənsiz,
Saralmış, həm solmuş bir bağam sənsiz,
Nisgilli, həsrətli bir dağam sənsiz,
Gözəllər gözəli, ey gözəl Pəri.

O lalə yanağı görmək istərəm,
Dərdimi səninlə bölmək istərəm,
Əlini əlimdə görmək istərəm,
Gözəllər gözəli, ey gözəl Pəri.

Ədalətin vuran ürəyi sənsən
Evinin sütunu, dirəyi sənsən.
Qəlbinin arzusu, istəyi sənsən
Gözəllər gözəli, ey gözəl Pəri.

## AY QIZ, AMANDIR

Qaşların kamandır, kirpiklərin ox,
Baxışın qəlbimə saldı dərin ox,
Gəl, sonsuz eşqimə cavab vermə "yox",
Yandırma qəlbimi, ay qız, amandır.

Ruhum cavan, dilim şirin, gözüm tox,
Gəl görüşək, deyiləsi sözüm çox,
Həsrətin üzübdü, dözümüm də yox,
Yandırma qəlbimi, ay qız, amandır.

Mənim ki, bu eşqim sənə əyandır,
Sevgimin atəşi, cümlə bəyandır,
Yetiş mənə kədərimi dayandır,
Yandırma qəlbimi, ay qız, amandır.

Dağları oyadır eşqin naləsi,
Dumana bürünüb dağlar laləsi,
Yazıram qarşımda eşq piyaləsi,
Yandırma qəlbimi, ay qız, amandır.

Seçə də bilmirsən, ağı qaradan,
Bu eşqin sevdasın verib Yaradan,
Axtarıb mən səni tapım haradan?
Yandırma qəlbimi, ay qız, amandır.

İzzətoğlu eşqin yanan şamıdır,
Sevgi təamının o bir tamıdır,
Alışan bu sevda eşqin kamıdır,
Yandırma qəlbimi, ay qız, amandır.

## QADIN NƏDİR?

Qadın Ana, qadın ürək,
Qadın həyat, qadın hava,
Qadın səma, qadın mələk,
Qadın günəş, mənəm Həvva,
Qadın verir, ürək, həvəs,
bilməlidir insanoğlu,
Ağıllı kəs,düşünən kəs.
Ədalət də çoşub yazar,
Qadın ruhdur, qadın nəfəs,
Qadın özü müqəddəsdir,
Qadın ilham verən kəsdir.
Qadın-Ana, Ana-Vətən!
Gəlin sevək anaları,
bacıları, nənələri,
Salam, ey Türk xanımları,
Bayramınız mübarək!

## NƏSİHƏT

Yaşadım həyatı öz namusumla,
Heç kimə əyilib, səcdə etmədim.
Köçəcəm həyatdan vaxtı gələndə
Tanrının yolundan kənar getmədim.

Oxu, nəsihətim qalsın yadında,
Hökmü var zamanın, hər bir anın da,
Ölüm bir qorxudur, insan canında,
Tanrının yolundan kənar getmədim.

Başımı dik tutdum, daim qürurla,
Vətənin yolunda cəfa etmədim.
Dolaşdım dünyamı ağıl, şüurla,
Tanrının yolundan kənar getmədim.

Haram yeyib, düz yolumu azmadım,
Bir kimsənin ayaq altın qazmadım,
Sözlərimi mən mənasız yazmadım,
Tanrının yolundan kənar getmədim.

Ədalətəm, taraz dünya istədim,
Nahaq olan hər bir sözü pislədim,
Haqqa gedən haqq yolumu istədim,
Tanrının yolundan kənar getmədim.

## YEDDİ XALLI GÖZƏLƏ

Dəli könlüm aşiq olub hüsnünə,
Rəssam çəkib sanki xalı üzünə,
Nur, şəfəqi verib Allah gözünə,
Səni görən ürəyindən üzülər,
Yeddi xallı, qarşımdakı ey gözəl.

Ala gözlər heç baxmayır gözümə,
Ürəyim də baxmır mənim sözümə,
Qoymayır ki, gəlim bir az özümə,
Səni görən ürəyindən üzülər,
Yeddi xallı, qarşımdakı ey gözəl.

Ayrıldın sən, mən də vurdum dizimə,
Məcnun kimi düşdüm sənin izinə,
Yerişinlə çəkdin məni dözümə,
Səni görən ürəyindən üzülər,
Yeddi xallı, qarşımdakı ey gözəl.

Dağların qoynunda bir laləzarsan,
Bir baxışla düz yolunu azarsan,
“Yox”deməklə məzarımı qazarsan,
Səni görən ürəyindən üzülər,
Yeddi xallı, qarşımdakı ey gözəl.

Tanrı verib, gözəlliyin bir paydı,
Günəş doğub, gecəmizə bir Aydı,
Bahar gəlib, çiçəklərə hopaydı,
Səni görən ürəyindən üzülər,
Yeddi xallı, qarşımdakı ey gözəl.

Rəsm əsəri çəkilibdi boyuna,
Əroğlunu sən də salma oyuna,
Görüm, ellər gəlsin sənin toyuna,
Səni görən ürəyindən üzülər,
Yeddi xallı, qarşımdakı ey gözəl.

## KOMANDANIM VAR MƏNİM

Yayımlandı səfərbərlik sədası,
Birləşdi vətənin eli, obası,
Yandı ürəklərdə qisas sobası,
Poladlarım, Mayislərim, Hikmətim.

Şəhid dostlarının qisasın aldı,
Bütün Türk xalqının yadında qaldı,
Qəhrəman adıyla qalxdı, ucaldı,
Poladlarım, Mayislərim, Hikmətim.

Türkün yumruğunun dadı bilindi,
Yenilməz zərbəsi, odu bilindi,
Düşmənin öz yeri, həddi bilindi,
Poladlarım, Mayislərim, Hikmətim.

Əroğluyuq, Ərənlərim var mənim,
Dövlətlər içində yerim var mənim,
Ali Komandana şeirim var mənim,
Poladlarım, Mayislərim, Hikmətim.

## VAR

Bu dərdli günümdə, qəmli günümdə,
Gözümün yaşını silənlərim var,
Dərdimi bölüşüb fani dünyada,
Qələmin ucuyla bölənlərim var.

Almışam sinəmə sədəfli sazı,
Ömrümün ötüşüb gedibdi yazı,
Dediyim bir dürdür, yazıram yazı,
Qələmin ucuyla bölənlərim var.

Dərdimi demirəm bildirmək üçün,
Gözümün yaşını sildirmək üçün,
Yazmıram vaxtımı öldürmək üçün,
Qələmin ucuyla bölənlərim var.

Deyə də bilmirəm, gözlərim gəzir,
Dağlayır sözlərim, qəlbləri əzir,
Ətrafa boylanıb dostları gəzir,
Qələmin ucuyla bölənlərim var.

Almışam sinəmə sədəfli sazı,
Göylərə qalxıbdır, ruhu, avazı,
Başında papağa vurur qapazı,
Qələmin ucuyla bölənlərim var.

Bölünüb vətənim, gəlibdir gözə,
İzzətoğlu dərdə de, necə dözə?
Güc verdim qələmə, güc verdim sözə,
Qələmin ucuyla bölənlərim var.

## HOVUSLUM

Hər koluna, ağacına,
Daş-qayana, Ocağına,
Düzlərinə, yamacına,
Bağlıyam mən, Hovuslum!

Qartal qonan hər dağına,
Kəhrizinə, bulağına,
O müqəddəs torpağına,
Bağlıyam mən, Hovuslum!

Yetişdi ordum dadıma,
Çatdım mən də muradıma.
Ata yurdum ocağıma,
Bağlıyam mən, Hovuslum!

Şükür çatdım mən arzuma,
Qovuşdum güllü yazıma,
Can kəndimə, murazıma,
Bağlıyam mən, Hovuslum.

## DÖYÜŞKƏN ƏSGƏRƏM

Yurdumun haqq səsi qulaqlarımda,
Hər gün qan ağlayır bulaqlarım da,
Quruyub, çatlayır dodaqlarım da,
Döyüşkən əsgərəm Vətən yolunda.

Yollara çıxmışam ucsuz, bucaqsız,
Qalmışam vətəndə evsiz, ocaqsız,
Olsam da həyatda nə qədər haqsız,
Döyüşkən əsgərəm Vətən yolunda.

Bu həyat vətənsiz nəyə gərəkdir?
Şəhidlər vətənə böyük örnəkdir.
Torpaq and yeridir, sudur, çörəkdir,
Döyüşkən əsgərəm Vətən yolunda.

Üçrəngli bayrağım, ucal göylərə,
Qoy şanın, şöhrətin düşsün dillərə,
Sözümü deyirəm, düşmən ellərə,
Döyüşkən əsgərəm Vətən yolunda.

Ədalət, düşmənə vermə sən aman,
Düşmənin qiymətin verəcək zaman.
Əlimdə qələmim, dönmüşəm yaman,
Döyüşkən əsgərəm Vətən yolunda.

## VƏTƏN

Ey Vətən, canımsan, salamlar olsun!
Səni sevməyənlər görüm xar olsun,
Kaş ki, övladların bəxtiyar olsun,
Dözə də bilmirəm yarana,Vətən!

Ayrı düşdük yurdumdakı evimdən,
Elə bil ki, ürəyimin telindən,
Şah damarım kəsilibdir dibindən.
Dözə də bilmirəm yarana, Vətən!

Namərdin ayağı yurda dəyməsin,
İgidlər düşmənə başın əyməsin.
Boran, çovğun bu ellərdə əsməsin,
Dözə də bilmirəm yarana, Vətən!

Namərd əllər uzanmasın yurduma,
Qüvvət gəlsin millətimə, orduma,
Gün gələcək çatacağam arzuma.
Dözə də bilmirəm yarana, Vətən!

Ya Rəbb, Ədaləti ruhuna qaytar,
Ballı, çeşməsinə, suyuna qaytar,
Doğma Qarabağa, yurduna qaytar.
Dözə də bilmirəm yarana, Vətən!

## TURAN ELLƏR VAR OLSUN

Turan ellər var olsun,
Qoy aləmə car olsun,
Düşmən baxıb xar olsun.
Tanrı Türkə yar olsun!

Allahdandır payımız,
Cah-cəlallı dünyamız,
Milyonlardı sayımız,
Tanrı Türkə yar olsun!

Salam olsun ellərə,
Turan deyən dillərə,
Alqışlayan əllərə,
Tanrı Türkə yar olsun!

Xoş arzular, ellərə,
Coşub dönsün sellərə,
Uzanmasın illərə,
Tanrı Türkə yar olsun!

Əroğluyam, Ərənlər!
Soykökünü bilənlər,
Bu birliyə gələnlər,
Tanrı Türkə yar olsun!

## VƏTƏN HƏSRƏTİ

Hönkürüb-ağlamaq keçir içimdən,
Qəlbimi ağrıdır vətən yanğısı.
Didərgin olmuşam ellər içində,
Canıma od salıb yurdun ağrısı,

Məcnuntək yurdumda divanə olub,
Salmışam çöllərə şair qəlbimi.
Bu ürək üzülüb, saralıb-solub,
Ağrıdır, sızladır bir həsrət kimi.

Leylinin eşqinə yanan şam kimi.
Əriyib töküldüm mən dəryalara,
Qəlbimə dərd salıb şər axşam kimi,
Dözməyir ürəyim, ahu-vaylara.

Bağlıdır o yurda gedən yollarım,
Dözməyir bu ürək, partlayır, vallah!
Açılmır hələ də o gen yollarım,
Gecələr bu bəndən yatmayır, Allah.

Toylarda oxuyub çəpik çalmağa,
Bu həvəs qalmayıb mənim içimdə,
Ömür taleyimə yoldaş olmağa,
Bağlanıb, qalmışam zindan içində.

Köçkünəm, qaçqınam, ellər içində,
Ey dünya sən məni haralı etdin?
Yatsam da çiçəklər, güllər içində,
Yandırıb bu qəlbi yaralı etdin.

Dünyanın malında yoxdu tamahım.
Ya Rəbbim, o yurdu sən mənə qaytar,
Qalxıbdı göylərə amanım, ahım.
Onlarsız hər günüm qaranlıq olar.

Yurdumda yağılar tikib saraylar.
Qalmasın o yurdlar qarı düşmənə,
Ədalət dözməyir, cəngi haraylar.
Vətən həyatımdan əzizdir mənə.

## TURAN HARAYI

Bir nağıl həyatı yaşayıram mən,
Tarixi qələmə alıram hər an.
Kiminə nağıldır, kiminə ağıl,
Ətri var Vətənin, şeirlərimdə.
Bir günəş doğacaq,
dünyamıza nur saçacaq,
al şəfəqə boyanacaq,
dövran belə qalmayacaq.
Gəl, yapış əllərimdən.
Söhbət aç ellərimdən,
Mən bir haray çəkirəm,
Bu Türkün harayıdı.
Vətənim parçalanıb,
Bu torpaq yaralıdır...
Arazla bölünüb ara,
Bu Vətən paralıdır...
Həm o taylı,
həm bu taylı,
bu, Vətən harayıdır!.
Bu, Turan harayıdır!
ruhumun harayıdır!

## MİLLƏTİM

Doğma yurdda, öz elimdə nər idim,
Ayrı düşdüm, qəm-kədərdən əridim.
Yağı düşmən, elə bilmə kiridim,
Yaxşı anla, uduzmayıb millətim.

Tez bir zaman azad olsun ellərim,
Yağsın yağış, coşsun yurdda sellərim,
Qarabağda əssin tufan, yellərim,
Yaxşı anla, uduzmayıb millətim.

Allaha şükr edib, hər gün deyirəm,
Mən vətən oğluyam, qorxaq deyiləm,
De, düşmən önündə niyə əyiləm?
Yaxşı anla, uduzmayıb millətim.

Vətən igidlərim səf-səf düzülsün,
Qələbədən göz yaşlarım süzülsün,
Kim ki, sevmir, millətimi üzülsün,
Yaxşı anla, uduzmayıb millətim.

Öyünmə, dövranın çoxdan keçibdir,
Milli Ordum Qələbəni seçibdir,
Zəfər bizim, artıq tufan keçibdir,
Yaxşı anla, uduzmayıb millətim.

Xain millət torpağa göz dikibdir,
Neçə İgidlərim Şəhid gedibdir,
Ədalət yüz dəfə, bəyan edibdir,
Yaxşı anla, uduzmayıb millətim.

Millətim ayıqdır, ey qanmaz, nadan,
Küləklər əssə də şimal-cənubdan,
Lakin bizimlədir Ulu Yaradan,
Yaxşı anla, uduzmayıb millətim.

## ORDA ÖLÜB, O YURDUMDA QALAYDIM

Kaş, dağların, mən seyrinə çıxaydım,
Şıx dağına dizin-dizin qalxaydım,
Pirimizdən "Hovuslu"ya baxaydım,
Orda ölüb, o yurdumda qalaydım.

Ziyarətin zirvəsinə qalxaydım,
Ona gəlmiş qadasını alaydım,
Bayrağımı zirvəsinə taxaydım,
Orda ölüb, o yurdumda qalaydım.

"Ziyarət" dağından Şuşaya baxıb,
Özümü tonqala, alova yaxıb,
Düşmənin başına gülləni çaxıb,
Orda ölüb, o yurdumda qalaydım.

"Ömürlük"dən qalxıb üzü yuxarı,
Kəndimizin kəhrizinə çataydım,
"Çaxmaqlı"da çaxmaq daşı çaxaydım,
Orda ölüb, o yurdumda qalaydım.

Qala dağdan "Qalacığ"a mən düşüb,
Xan bağında, o cənnətlə görüşüb.
Qozlu dağın bulağına yetişib,
Orda ölüb, o yurdumda qalaydım.

Yağış olub, torpağında yağaydım,
Bir çay olub, Arazıma axaydım,
Xudafərin körpüsünə baxaydım,
Orda ölüb, o yurdumda qalaydım.

Qartal olub göylərində süzəydim,
Vətənimi o tay, bu tay gəzəydim,
"Xan Çinar"ın güllərindən  üzəydim,
Orda ölüb, o yurdumda qalaydım.

Müqəddəs ocağım Hacı Qaraman,
Sevdiyimiz məkan olub hər zaman.
Uzaq düşdüm Cəbrayılımdan, aman,
Ədalətəm, o yurdumda qalaydım...
Orda ölüb, o yurdumda qalaydım.

## QARABAĞDAN İLHAM ALAQ

Qarabağdan gələn sular,
Bizə həsrət gətirmişdir.
Səmada da, uçan quşlar,
Bizə həsəd gətirmişdir.

Xəbər verir o ellərdən,
Bizsiz qalmış o çöllərdən,
Dağıdılmış mənzillərdən,
Bizə "qismət" gətirmişdir.

Yurdlarımız darmadağın,
Yaddan çıxmaz Qarabağım,
Yurdda sönüb, o çırağım,
İtmiş ismət gətirmişdir.

Bulud olub göyə qalxaq,
Şimşək olub göydə çaxaq,
Göz götürüb yurda baxaq,
Acı, xislət gətirmişdir.

Düşmənləri yurddan qovaq,
Düşmənin burnunu ovaq,
Qarabağdan ilham alaq,
Geniş vüsət gətirmişdir.

## YURDA ÖZÜM GƏRƏYƏM

Elə bir arzu var, yanır içimdə,
Onu hiss etməyə ürək gərəkdir.
Yurdun intizarı, qalıb içimdə,
Müalicə lazım, həkim gərəkdir.

Yurdun həsrətiylə qulağım səsdə.
Qarabağ əsirdir, mənsə qəfəsdə.
Dəyişib yurdların görkəmi xəstə,
Müalicə lazım, həkim gərəkdir.

Dilim də gödəkdir illət içində,
Danışa bilmirəm millət içində,
Bükülüb belim də zillət içində,
Müalicə lazım, həkim gərəkdir.

Xəritəm qaralıb, yurdumdur dağım,
Dözə də bilmirəm,nə çoxdur ağrım,
Dözə də bilmirəm, çatlayır bağrım.
Müalicə lazım, həkim gərəkdir.

Bu dərdi qəlbimdən silən deyiləm,
Düşmən kimdi, mən də ona əyiləm?!
Yurdumu görməmiş ölən deyiləm,
Müalicə lazım həkim gərəkdir.

## QİSAS VAXTIDIR...

Yağıbdır başıma dağların qarı,
Axır gözlərimdən qəm bulaqları.
Qəlbimdə alışır yurd ocaqları,
Qalx millətim: indi qisas vaxtıdır!

Görünmür gözümə dərdimin sonu,
Abad evlərimə bayquşlar qonub.
Vətənim işğaldır, işığım sönüb,
Qalx millətim: indi qisas vaxtıdır!

Şəhid məzarını unutmaq olmaz,
Boş sözlə, göz yaşın qurutmaq olmaz,
Torpaq ayaq altda heç yatmaq olmaz,
Qalx millətim: indi qisas vaxtıdır!

Dünya susur, haqqı-doğrunu danır,
Düşmən arxasında düşmən dayanır.
Dözməyir ürəyim, od tutub yanır,
Qalx millətim: indi qisas vaxtıdır!

Ədalətəm, mən Türkün qardaşıyam.
Yaralı yurdumun ocaq daşıyam,
Sadə Azərbaycan Vətəndaşıyam,
Qalx millətim: indi qisas vaxtıdır!

## HƏSRƏTİM QURTARSIN...

Ay ellər, can gərək dözsün bu dağa,
Gücüm yoxdur qalxam qan sulu dağa,
Aparın siz məni, o Ulu dağa,
Həsrətim qurtarsın, yurda, torpağa.

Neçə ildir Xan Çinarım dardadır,
Ürək qubar, yurdum ahu-zardadır,
Göstərin Çinarı, görüm hardadır?
Həsrətim qurtarsın, yurda, torpağa.

Cəbrayıl müqəddəs pirlər məkanı,
Tarixi Uludur sirlər məkanı,
O, dahilər yurdu, dürlər məkanı,
Həsrətim qurtarsın, yurda, torpağa.

Xudafərin bu vətənin əyyarı,
Çatışmır üstündə gəzən səyyarı,
Sözdü hər şeirin ölçü, meyarı
Həsrətim qurtarsın, yurda, torpağa.

Bu qoca dünyada qocalmışam mən,
Dərdimlə baş-başa ucalmışam mən,
Qədərsiz kədərdən sozalmışam mən,
Həsrətim qurtarsın, yurda, torpağa.

Ayrılıq bitməsə deyib, gülmərəm,
Tarix unudulmur, haqq itirmərəm,
Dərdimin üstündə dərd bitirmərəm,
Həsrətim qurtarsın, yurda, torpağa.

Zülmət qaranlıqdır dünya gözümdə,
Vətən baş-başayam sənlə, sözümdə,
İgid əsgər gərək desin sözün də,
Həsrətim qurtarsın, yurda, torpağa.

Əroğlu, qapanıb qalmaz özündə,
Düşmən at oynadır Cıdır düzündə,
Nərə çək, düşmənin vur, tök gözün də,
Həsrətim qurtarsın, yurda, torpağa.

## SON ZƏNG

Çalmayın bu zəngi əziz müəllim,
Dolubdur gözlərim sevinc, kədərlə,
On bir il verdiyin biliklərini,
Vermədim zəhmətin mən də hədərlə.

Bir az da gözləyin, çalmayın zəngi,
Uşaqlıq illərim gəlir gözümə,
Ürəkdən deyilən xoş sözlərim var,
Dilim də söz tutmur, baxmır sözümə.

Dayan, dur, ey saat, batma ey Günəş,
Bir anlıq qayıdım ötən illərə,
Qarşımda dayanıb gələcək illər,
Məktəb həyat verdi, biz nəsillərə…

## UNUDA BİLMİRƏM

Nə qədər yazsam da, əlim yorulmaz,
Şəninə söz desəm, dilim yorulmaz,
O yerlər cənnətdi, elim yorulmaz,
Unuda bilmirəm mən səni, ellər.

Xəzərin suları coşur, durulmur,
Fikirlər başımda daşır, qurulmur,
Yatmıram gecələr, gözüm yorulmur,
Unuda bilmirəm mən səni, ellər.

Bülbül həsrət ilə, oxuyur bəmdən,
Düşündüm, oxuyur görəsən nədən?
Bəlkə ayrı düşüb, o da Vətəndən,
Unuda bilmirəm mən səni, ellər.

Qəm oxudun ürəyimə toxundun.
Vətən adlı həsrətimə toxundun.
Aylar keçdi, illərimə toxundun,
Unuda bilmirəm mən səni, ellər.

Ədalət, bu zülmə dözüb, yorulma.
Getdiyin bu yoldan bezib, yorulma,
Baş əymə düşmənə, naümüd olma,
Unuda bilmirəm mən səni, ellər.

## TORPAĞI QAYTARIN...

Duraq İgidlərim, qalxaq ayağa,
And içək, baş əyək, Ulu torpağa,
Vətənin yolunda dönək bir dağa,
Torpağı qaytarın, Azərbaycana!

Dövlətim canımdır, onu qorudum,
İgidlər yurdudur, mənim bu yurdum,
Yaşasın millətim, yaşasın Ordum,
Torpağı qaytarın, Azərbaycana!

Bəsdirin, yurdumda at oynatdınız,
İgidi öldürüb, qan axıtdınız,
Böyüyə-kiçiyə güllə atdınız,
Torpağı qaytarın, Azərbaycana!

Dayandır atəşi, sən məni dindir,
Əlində tutduğun silah kimindir?!
Gəzdiyin o torpaq bil ki, mənimdir,
Torpağı qaytarın, Azərbaycana!

## VƏTƏNSİZ YAŞAMAQ...

Xəyalən yurduma gedirəm hər gün,
Düşünmə heç nədir, nağıldır, nağıl.
Ölüb-dirilirəm hər gecə, hər gün,
Vətənsiz yaşamaq ağırdır, ağır.

Nankor düşmən yollarımı bağlayır,
Qaçqınlarım "yurdum" deyib ağlayır,
Bu mənzərə ürəyimi dağlayır,
Vətənsiz yaşamaq ağırdır, ağır.

Qartal olub zirvələrə qalxaydım.
Göz götürüb doğma yurda baxaydım.
Düşmənimi "caynağıma taxaydım",
Vətənsiz yaşamaq ağırdır, ağır.

Ay Əroğlu, oyan, o yurduna bax!
Yurdunda gəzməsin o vəhşi sarsaq!
Baş əymə düşmənə, atəşini çax!
Vətənsiz yaşamaq ağırdır, ağır.

## ŞƏHİD EŞQİNƏ

Ey xalqım, oyanaq, qalxaq ayağa,
Bu vətən eşqinə, yurdun eşqinə,
Düşməni biz əzək, salaq ayağa,
Xocalı eşqinə, Şəhid eşqinə.

Sinəm də dağlıdır, Azərbaycanım,
Yaralı qalıbdır, Vətənim, canım,
Sinəm yaralanır, tökülür qanım,
Xocalı eşqinə, Şəhid eşqinə.

Qəlbimi dağlayır, körpə naləsi,
Al-qan içindədir, çay, şəlaləsi,
Bitməyir dağımda, açmır laləsi,
Xocalı eşqinə, Şəhid eşqinə.

Əsgər paltarını geyinəm gərək,
Mübarizlərimlə öyünəm, gərək,
Vətən sevgisiylə döyünər ürək,
Xocalı eşqinə, Şəhid eşqinə.

Əsgər paltarını geyməyən kəsdə,
Qələbə çalmağa olmaz həvəs də,
Qələbə əzmiylə qulağım səsdə,
Xocalı eşqinə, şəhid eşqinə..

## ŞƏHİDLƏR

Düşmən atəşinə sinəsin verib,
Başını əymədi, dözdü Şəhidlər.
Vətənin yolunda canların verib,
Tarixə adların yazdı Şəhidlər.

Qalxıbdı göylərə, ana naləsi,
Başında fikir var, çoxlu həvəsi...
Görmək istəyirdi oğul nəvəsi,
Tarixə adların yazdı Şəhidlər

Dağlayır qəlbini, oğul yarası,
Göz yaşı axıdır ciyərparası,
Qorxuyla olmadı əsla arası,
Tarixə adların yazdı Şəhidlər.

Analar məzarı qucaqlayırlar,
Gecələr yatmayır, sayaqlayırlar,
Övladın keçmişin varaqlayırlar,
Tarixə adların yazdı Şəhidlər.

Ədalət, üzürsən qəmlər içində,
Göz yaşı tökməyək ellər içində,
İgidlər olmamış belə biçimdə,
Tarixə adların yazdı Şəhidlər.

## DƏRDLİ ADAMLAR...

Dərdli adamlardır, qərib adamlar,
Dərdləri sığmayır yer-göy arası,
Vətəndən ayrılıb, qalıb uzaqda,
Qəlbində çırpınır, ürək yarası.

Dərdli adamlardır, qərib adamlar,
Yaşayır dünyasın öz dərdləriylə,
Bir muğam eşidib, üzü güləndə,
Göz yaşın silməyir, öz əlləriylə

Dərdli adamlardır, qərib adamlar,
Dərdinə dərd qatıb, biçarə olur,
Heç özü də bilmir neçə dərdi var,
Tanrıdan dərdinə bir çarə olur.

Dərdli adamlardır, qərib adamlar,
Həsrətin əlindən gəlibdir zara,
Dəyişib dünyası, canında azar,
Ölsə də baş əymir, dövlətə, vara.

## AMANDIR...

Qərənfillər, dərdim sənə əyandır,
Şəhidlərim hər bir kəsə bəyandır,
Torpaqlarım başdan-başa al-qandır,
Ağla bacım, ağla anam, amandır.

Qaysaq verməz Şəhid adlı bu yaram,
Vətənin yolunda Şəhidəm, varam,
Deyin, qana bulaşmayıbdır haram?
Ağla bacım, ağla anam, amandır.

İllər ötür, dövran həmin zamandır,
Ata-Ana fəryadı çox yamandır,
Qan tökülür, el-obamız talandır,
Ağla bacım, ağla anam, amandır.

Unutmaq  olarmı bu şanlı izi?
Vətənçün ölüm də qorxutmur bizi,
Unutmaq olarmı, faciəmizi?
Ağla bacım, ağla anam, amandır.

Ağlama, ey mənim hünərli Bakım,
Dünyamın paytaxtı, dəyərli Bakım,
Gələcəyi, parlaq səhərli Bakım,
Ağla bacım, ağla anam, amandır.

Vuraq, deşək düşmənimin qəlbini,
Öldür, dərindən qaz düşmən qəbrini,
Parçala, məhv eylə, unut səbrini,
Ağla bacım, ağla anam, amandır.

İzzətoğlu gecələri yatammaz,
Heç bir düşmən millətimə batammaz,
Torpağımı torpağına qatammaz,
Ağla bacım, ağla anam, amandır.

## YURDSUZ YAŞAMAQ ÇƏTİN

Üzümə gülmədi mənim bu həyat,
Yata da bilmirəm, evimdə rahat,
Ömür də azalır, hər gün, hər saat,
Dözmək də olmayır, yaşamaq çətin.

Həsrətdən üzülür, ürəyim mənim,
İllərdir yurdumda bitmir səmənim.
Dağılıb yurdlarım, yanıb çəpərim,
Dözmək də olmayır, yaşamaq çətin.

Çoxdan itib yurdda ayaq izlərim,
Ölüb gedir, ürəyimdə hisslərim.
Ayaq getmir, taqətsizdi dizlərim.
Dözmək də olmayır, yaşamaq çətin.

Ədalət, yurdların işğal olubdur,
Elindən ayrısan, rəngin solubdur.
Kədərdən ürəyin yaman dolubdur.
Dözmək də olmayır, yaşamaq çətin.

## YANIR

Ah çəkir dağlarım, Ah çəkir Vətən,
Yurdumun səması, göyləri yanır.
Qalxır göy üzünə, göyün ərşinə,
Dərdindən alışıb, canım odlanır.

Yanır, içimdəki sözlərim yanır,
Həsrətdən alışıb üzlərim yanır,
Yanır bu ürəyim, hisslərim yanır,
Dərdindən alışıb, istəyim yanır.

Kim bilir, bu dərdə necə dözürəm,
Qələmim od tökür, ürəyim yanır,
Çiynimdə el yükü, necə gəzirəm,
Cövründən alışıb kürəyim, yanır.

Göylər də alışıb, göylər də yanır,
Günəşim çıxanda dünya oyanır,
Ədalətin qəlbi nura boyanır,
Alovun özüyəm, ürəyim yanır.

Dünyanın enişi, yoxuşu vardır,
Zirvələr əlçatmaz, enişlər dardır,
Dünyanın görünən bir üzü vardır,
Neçə arzum yanır, diləyim yanır.

Əroğlu,Vətənin al qan içində,
Kim görübdü, mənim dərdim biçimdə,
Zaman çatıb, səhv etmərəm seçimdə,
Silah gəzdirməyə biləyim, yanır.

## YUXUDAN AYILDIM, QARALDIM NECƏ

Dostlar, yenə yuxum qarışdı gecə,
Qalxmışdım səmaya, ulduzlar neçə...
Getmişdim kəndimə, sevindim gecə.
Yuxudan ayıldım, qaraldım necə.

Söhbət etdim, Anam, Xalam, Dayımla,
Əmim, qohumlarım, qonşularımla,
Ləzzətlə çay içdik tanışlarımla,
Yuxudan ayıldım, qaraldım necə.

Söhbət gedir, həyalıydı söhbətlər,
Ətir qoxusu var, ətrafda güllər.
Cəh-cəh edib, oxuyurdu bülbüllər.
Yuxudan ayıldım, qaraldım necə.

Yurd həsrəti ilə köçdü insanlar,
Əbədi dünyaya, qovuşdu canlar.
Bu dünyam bir cahan, ora bir cahan.
Yuxudan ayıldım, qaraldım necə.

Ədalətəm, Yurdu Ulduz seçirəm.
Yurd Ulduzu sınağından keçirəm.
O Ulduzu, ulduzlardan seçirəm.
Yuxudan ayıldım, qaraldım necə.

# ƏDALƏT, SİLİNSİN O QARA LƏKƏ

Dəyişir zamanə, günlərim ötür,
Ömrümü keçirdim dərd çəkə-çəkə,
İtirdik yurdları, illərim ötür,
Dünyamın içində o qara ləkə.

Birləşib birlikdə, qalxaq o dağa.
Verməyək imkanı düşmən yaltağa,
Düşmənin başını basaq torpağa.
Dünyanın içində, o qara ləkə.

Millət bir olarsa, basılmaz Vətən.
Verək əl-ələ biz, toxuyaq çətən.
Qaytaraq yurdları, desinlər Əhsən.
Dünyamın içində o qara ləkə.

Qələbə eşidim, toy sədasıyla.
Şeirim yazılsın şən misrasıyla.
Dinləyək musiqi, el sevdasıyla.
Ədalət, yox olsun o qara kölgə!
Dünyamın içində o qara ləkə.

# DƏRDİMİN ƏLACI SƏNDƏDİR, ALLAH!

Xan Çinar sızlayır, mənsiz qalıbdır,
Tarlamız sünbülsüz, dənsiz qalıbdır,
Bülbüllər oxumur, səssiz qalıbdır,
Dərdimin əlacı səndədir, Allah!

Yurdumun gülləri çoxdan solubdur,
Qarğa-quzğun torpağıma dolubdur,
Yurdlarım dağılıb tar-mar olubdur,
Dərdimin əlacı səndədir, Allah!

Qartallar qıy vuran dağlarım, haray,
Şeydasız qalıbdır bağlarım, haray,
Ötən o illərim, çağlarım, haray.
Dərdimin əlacı səndədir, Allah!

Dərdliyəm, gecələr keçənə kimi,
Ürəyim göz yaşın içənə kimi,
Xəstəyəm, yurduma köçənə kimi,
Dərdimin əlacı səndədir, Allah!

Bir tonqal alışıb, qəhər çənində,
Dağlar da görsənmir səhər çənində,
Yazıram şeirimi kədər çənində,
Dərdimin əlacı səndədir, Allah!

Əroğlu, yazdığın drama bənzər,
Bir nikbin arzu var, ruhumla gəzər.
Qəm yüküm ağırdır, cismimi üzər,
Kaş, bir nur saçıla, o yurda ALLAH!

## BAŞA SALAQ

Ah, naləm göylərə qalxıb yenə də,
Xocalı naləsi yandırır məni,
Yandırır yerləri, həm də göyləri,
Neçə igidimi alaraq getdi,
Neçə soydaşımın qəlbin qopardı.
Ana-bacıları əsir saxladı,
İşgəncə, zülümlə dırnaq qopardı,
Namusu, qeyrəti alıb apardı,
Dözmək üçün ürək lazım, ay zalım,
Səsinə səs verən tapıla gərək,
Düşməni biz əzib vayını verək.
Gücüm çatmır ayaq üstə qalmağa,
Birləşək biz, o  qisası almağa,
Başa salaq gərək biz düşmənləri.

## HACI QARAMAN OCAĞI

And yerimiz olmuş Hacı Qaraman,
Yolları bağlıdır, gör neçə zaman,
Ətrafı bürüyüb boz çiskin, duman,
Həsrətdən üzülüb, qalmışıq yaman.

Düşmən zalım olub, ayırıb bizi,
Yadımdan çıxmayır cığırı, izi,
Bölə də bilmirik kədərimizi,
Həsrətdən üzülüb, qalmışıq yaman.

Babamın Ocağı, Baba Ocağı,
Çələbi Ocağı, Dilək Ocağı,
Sönübdür yurdumun qönçə ocağı,
Həsrətdən üzülüb, qalmışıq yaman.

## DÜNYA MƏNƏ DAR GƏLİR...

Vətənim bölükdür, mənə ar gəlir.
Yurdum əsir, ürəyimi xar dəlir.
Öz elimdə qəlbə ahu-zar gəlir,
Bu dünyamız mənə yaman dar gəlir.

A dostum, incimə, düzgün sözümdən,
Bircə anda getmir yurdum gözümdən.
Doğrusu, bezmişəm, özüm-özümdən,
Bu dünyamız mənə yaman dar gəlir.

Bağça-bağım, meşələrim solubdur,
Vətənimə düşmən, zalım dolubdur,
Anam, bacım saçlarını yolubdur,
Bu dünyamız mənə yaman dar gəlir.

Bazarıma, yad ellərdən bar gəlir,
Alma, heyva, əncir, üzüm, nar gəlir,
Dərd çəkməkdən saçlarıma qar gəlir,
Bu dünyamız mənə yaman dar gəlir.

Yurdum cənnət, solub bahar, qar gəlir,
Torpağıma "qatil adamlar" gəlir,
Dünya fani, susmaq mənə ar gəlir,
Bu dünyamız mənə yaman dar gəlir.

Könlüm qübar, bağça-bağım talandır,
Dostum demə, dünyamız da yalandır,
Pak əməllər tarixlərdə qalandır,
Bu dünyamız mənə yaman dar gəlir.

Düşmən namərd, yeni bəlalar gəlir,
Üstümüzə Şəhid balalar gəlir,
Sevinin, qarşıdan xoş anlar gəlir,
Ədalət, yurduma xoş bahar gəlir.

## ÜRƏK NECƏ DÖZSÜN BU AYRILIĞA?

Yadıma yurdumun dağları düşür,
Həsrətdən quruyan bağları düşür,
Gənclik illərimin çağları düşür,
Ürək necə dözsün bu ayrılığa?

Xəyalımda canlanır gözəl aləm,
Ürəyimdə kədər, gözlərimdə qəm,
Başımda fırlanır, bütün bu aləm,
Ürək necə dözsün bu ayrılığa?

Cəbrayılım, Ağdam, Füzuli, Laçın,
Qarabağa gedən yolları açın.
Günahı nədədir ağarmış saçın?
Ürək necə dözsün bu ayrılığa?

Dağlarım həşərat yurduna dönüb,
Vətənimdə neçə ocağım sönüb,
Fələyin üzü də yamanca çönüb,
Ürək necə dözsün bu ayrılığa?

Elimdən görəndə bir el adamı,
Ürəklər yaxındır, alır qadamı.
Qaytaraq elləri, qalsın yadamı?
Ürək necə dözsün bu ayrılığa?

Ədalət qocalıb yurduna dönsə.
Dağlar mənim gəlişimə sevinsə,
Ay Allah, o günü qismət et, bizə
Ürək necə dözsün bu ayrılığa?

# O YURDA TƏRƏF

Bağlanıb yollarım, qalmışam naçar,
Vicdanım qəlbimdə bir alov saçar,
O ata yurdumda paslanıb açar,
Açacam yolları, o yurda tərəf.

Ömür taleyimdə dərd qapıları,
Gəzirəm, tapacam mərd qapıları…
Vurub əzəcəyəm sərt qapıları,
Açacam yolları, o yurda tərəf.

Yazıram qələmim əsir əlimdə,
Ürəkdə qalıbdır yurd diləyim də.
Əsəcək vətəndə şərq küləyim də,
Açacaq yolları, o yurda tərəf.

Açılsa yollarım, qəlbim açılar,
Bir günəş doğular, şəfəq saçılar,
Ədalət, gəzdiyin yollar açılar,
Açacam yolları, o yurda tərəf.

## SOLUB QARA GÖZLƏRİM

Vətəndən danışıb dastan yazdığım,
Ruhumdan süzülür gəlir sözlərim.
İtirdim, tapmıram, yolun azdığım,
Dağlar üçün solub qara gözlərim.

Günlərim uzundur, ilə bərabər,
Sözləri yazıram dürrə bərabər,
Gözümdən yaş axır selə bərabər,
Dağlar üçün solub qara gözlərim.

Köhnə sazım asılıbdı sinəmdə,
Dilbilməzlər salıb məni kəməndə,
Yollar bağlı, əlim çatmır o kəndə,
Dağlar üçün solub qara gözlərim.

Qaşıyıb yaramı qanatma qardaş,
Ömrümün acısın, unutma, qardaş,
Deyirəm, yol açaq, o yurda, qardaş,
Dağlar üçün solub qara gözlərim.

Ay Əroğlu, nə yatmısan, dur, oyan,
İşğaldır torpaqlar, demə ki, dayan.
Üçrəngli bayrağın rəngiylə boyan,
Dağlar üçün solub qara gözlərim.

## QƏRİB ADAMLAR

Dərdli adamlardır, qərib adamlar,
Dərdləri sığmayır yer-göy arası,
Vətəndən ayrılıb, qalıb uzaqda,
Qəlbində qaradır, ürək yarası.

Dərdli adamlardır, qərib adamlar,
Yaşayır dünyasın öz kədəriylə,
Şənliyə qoşulur, üzü də gülmür,
Göz yaşın silməyir, öz əlləriylə

Dərdli adamlardır, qərib adamlar,
Dərdinə dərd qatır məsum adamlar,
Boğulur içində gör neçə dərdi,
Tanrıya əl açır, məzlum adamlar.

Dərdli adamlardır, qərib "avara",
Yurdunu itirib, ürəyi yara,
Dərdi baş əyməyir, dövlətə, vara,
Həsrətin əlindən gəlir o zara.

Sinəmiz dağlıdır, Azərbaycanım,
Yaralı qalıbdır, qanır, bu canım,
Halına alışıb, yanır bu canım,
Dərdli adamlardır, qərib adamlar.

## QALMIŞAM NAÇAR

Yenə qəm gətirdi bu əsən külək,
Dağlara yan aldı, buludla şimşək,
İçimdə qalıbdır yurd adlı dilək,
Yollarım bağlıdır, qalmışam naçar.

Torpaq işğaldadır, vətən dardadır,
Vətəni sevənlər ahu-zardadır.
Sevməyənlər isə hələ bardadır.
Yollarım bağlıdır, qalmışam naçar.

Eynimdə dolaşır o qarlı dağlar,
İşğal altındadır meyvəli bağlar.
Gözlərim yoldadır, ürəyim ağlar,
Yollarım bağlıdır, qalmışam naçar.

Dözməyir həsrətə məndə bu ürək,
Birləşək, bir olaq həyatda gərək,
Birlikdə döyüşək, o yurda dönək,
Yollarım bağlıdır, qalmışam naçar.

Dözdükcə dözürəm, zülmət içində,
Bir vətən sevgisi yanır içimdə,
Kaş ki, olam zəmisində, biçində,
Yollarım bağlıdır, qalmışam naçar.

Yovşanlı düzlərin ətri sinəmdə
Ürək arzularım qalıb qələmdə.
Toy edərdim öz obamda, elimdə,
Yollarım bağlıdır, qalmışam naçar.

Səadət var, xoşbəxtlik var vətəndə,
İgid ölər, adı qalar vətəndə,
Ədalət dəniztək çağlar vətəndə,
Yollarım bağlıdır, qalmışam naçar…

## QƏMLİ DAĞLARIM

Yuxuma gəlmişdin yenə, bu gecə,
Sonsuz xoşbəxt idim, bir idik, gecə,
Gəzirdim qoynunda, bilirsən necə?
Dumanlı dağlarım, qəmli dağlarım.

Sinənə baş qoydum yuxumda öncə,
Uşaqtək sevincək olmuşdum necə...
Almırdım dünyanı, inanın vecə,
Dumanlı dağlarım, qəmli dağlarım.

Gəzirdim qoynunda mən də bir vədə,
Səndən ayrı düşüb, almışam zədə,
Dözə də bilmirəm acı həsrətə,
Dumanlı dağlarım, qəmli dağlarım.

Ürəkdən qan axır bir bulaq kimi,
Qoynunda çağlayan gur bulaq kimi,
Dərdimi bölürəm al-bayraq kimi,
Dumanlı dağlarım, qəmli dağlarım.

Düşmən də sinəndə səngərlər qazır,
Əroğlu dözməyir, hey yazır-yazır,
Əsgərəm yolunda, döyüşə hazır,
Dumanlı dağlarım, qəmli dağlarım.

## ULU YARADAN

Çəkdiyim cəfadan, dərdi-bəladan,
Hər şeydən halidir, Ulu Yaradan,
Bəxş edib dünyanı iki cahandan,
Dünyaya banidir, Ulu Yaradan.

Qanlı dağlar düşdü yenə yadıma,
Dərdim ha çox, Rəbbim çatır dadıma,
Divanəyəm, mən də sənin adına,
Bu dünya canidir, Ulu Yaradan.

Qara buludları şimşəklər içir,
Sürünüb dağlardan çən-duman keçir,
Ələnir o yerə, vaxt-zaman keçir,
Dərdim əyanidir, Ulu Yaradan,

Bir üzüm gündüzdür, bir üzüm gecə,
Şad gündə dünyanı sayırdıq heçə,
Hər kəs bu dünyada Rəbbini seçə,
Bu dünya fanidir, Ulu Yaradan.

Hardasa bir işıq yanır uzaqda,
Bu ürək çırpınıb, qalıb sazaqda,
Yolları dəyişib, hərdən azsaq da,
Yaşamaq anidir, Ulu Yaradan.

## YAŞA, VƏTƏN!

Rəbbimdən güc alıram,
Vətənimlə ucalıram,
Ömür sürüb qocalıram,
Yaşa, Dünya! Yaşa, Vətən!

Vətən-Ana, Ana-Vətən,
Qədir bilməz yoldan ötən,
Doymuram da nəfəsindən,
Yaşa, Dünya! Yaşa, Vətən!

Doğulmuşam vətəncanlı,
Ayrılıbdır o tay, canlı,
Bu millət Azərbaycanlı,
Yaşa, Dünya! Yaşa, Vətən!

Ələk-ələk ələnmişik,
Düzlərə səpələnmişik,
Biz ki, sənə güvənmişik,
Yaşa, Dünya! Yaşa, Vətən!

Gəl birləşək ay Eloğlu,
Bütövləşək, ay Eloğlu,
Köçüm yurda, mən Əroğlu,
Yaşa, Dünya! Yaşa, Vətən!

## QARABAĞ ŞEİRLƏ QAYITMAZ, QARDAŞ!

Vətənin torpağın bölən deyiləm,
Düşmən kimdir axı, ona əyiləm?!
Torpağı qoruyub sinəmi verrəm,
Qarabağ şeirlə qayıtmaz, qardaş!

Sinəmə alsam da mən telli sazı,
Çalsam da "Koroğlu", çatmır avazı.
Min dəfə yazsam da deyiləm razı,
Qarabağ şeirlə qayıtmaz, qardaş!

Qələbə marşının yoxdur əvəzi,
Vətən Anamızdır, çəkməz tərəzi.
Suyu buz kimiydi, könlün pəhrizi,
Qarabağ şeirlə qayıtmaz, qardaş!

Oxuyub şerimi çəpik çalarsan,
Sözümə söz qoşsan, yolda qalarsan.
Yurdunu unutsan çöldə qalarsan,
Qarabağ şeirlə qayıtmaz, qardaş!

Ağlama, sızlama, biz ərənlərik,
Koroğlu, Babəkik, Vətəndə nərik,
Ədalət sözlüyük, Vətənpərvərik,
Qarabağ şeirlə qayıtmaz, qardaş!

## GEDİM HARA?

Anam dağlar, canım dağlar,
Ürək açmaz, solar bağlar.
Ayrı qalmaz, könlüm ağlar,
Dərd əlindən gedim hara?

Düşmənimiz kəsir yolu,
Yağır yağış, tökür dolu,
Araz bölür, sağı, solu,
Dərd əlindən gedim hara?

Dağlar, yaman kövrəlmişəm,
Yurd dərdindən üzülmüşəm,
Qəm-qassəyə bürünmüşəm,
Dərd əlindən gedim hara?

Təbrizimin başı duman,
Bakımızın halı yaman,
Ayırıbdır bizi zaman,
Dərd əlindən gedim hara?

Ədalətə sən et kömək,
Biz birləşək, bütövləşək,
Çatlayacaq, dözmür ürək,
Dərd əlindən gedim hara?

## GÖZ YAŞI

Vətənimin vətəndaşı,
Yanır yurdun dağı, daşı,
Çatlayır, dərddən ürəyim,
Gəl axıtma, sən göz yaşı.

Biz Ulu Qorqud soydaşı,
Silinəmməz qan yaddaşı,
Qalx ayağa, sözünü de,
Gəl axıtma, sən göz yaşı.

Azərbaycan, od yaddaşım,
Sənə qurban bağrımbaşı,
Sözün desin Şanlı Ordum,
Gəl axıtma, sən göz yaşı.

Mən Türkəm, dostum, qardaşım,
Əroğluyam, səbr yoldaşım,
Xalqım deyəcək sözünü,
Gəl axıtma, sən göz yaşı.

## OYAN!

Ey Vətən oğlu, nə yatmısan? Dur, oyan!
Yaralanmış vətənimin keşiyində sən dayan!
Üçrəngli Bayrağın rənginə boyan!
Vətən işğal, torpaq əsir,
Yurdlar işğal, dağlar əsir.
Gözüm görmür, dilim əsir,
İçimdəki ruhum əsir,
Dağlanmışam, dağlar əsir,
Qız-gəlinim düşüb əsir,
O ah çəkir, dizi əsir,
Namus gedib, qeyrət əsir,
Dözəmmirəm, ürək bezir.
Qulağımda ah-naləsi
Şaxta vurur, boran əsir.
Qara günlü, qara bəxtli,
Qarabağım qalıb əsir,
Xəyallarım gəzir hər an,
Yaddan çıxmır, heç bir zaman
"Ziyarət"dən yellər əsir,
Ömür ötür, il tələsir…
Ömür ötür, il tələsir…

## CƏBRAYIL ELİNDƏN, OBASINDANAM

Mənə "haralısan?" deyən qardaşım,
Alimlər, aqillər yuvasındanam,
Ziyarət Ocağım Qaramanlıdır,
Cəbrayıl elindən, Obasındanam,

Şairəm, sözümlə qalxdım səmaya,
Yurdumda çeşmələr tökülür çaya,
Həsrətə dözməyib çatlayır qaya,
Cəbrayıl elindən, Obasındanam,

Xan Çinar yaşayır, yaşayacaqdır,
Yurdun kədərini daşıyacaqdır,
İgid əsgər kimi savaşacaqdır,
Cəbrayıl elindən, Obasındanam,

Ziyarət dağından axdı çaylarım,
Həsrətlə arxamca baxdı çaylarım,
Qəlbimi yandırdı, yaxdı çaylarım,
Cəbrayıl elindən, Obasındanam,

İzzətoğlu, nələr gəldi başına,
İllər keçdi, çatdın ahıl yaşına,
Yazarsan axırda məzar daşına:
"Cəbrayıl elindən, Obasındanam!"

## DÜNYA

Hər dəfə şəninə söz yazıram mən,
Görüm nəyi isə düz yazıram mən?
Hərdən, yazdığımı tez pozuram mən,
Baş-başa qalmışam səninlə dünya.

Xəyalım dolaşıb gəzir hər yanı,
Seçmədim özümə şöhrəti, şanı,
Başıma tac bildim Azərbaycanı,
Baş-başa qalmışam səninlə dünya.

Dağların üstünə dağlar elədin,
Bağça-bağlarıma sən qar elədin,
Şimşək olub çaxdın, odlar elədin,
Baş-başa qalmışam səninlə dünya.

Daş olub qalmışam qürbət ellərdə,
Vədəsiz ağardı, başda tellər də,
Ötüb keçdi cavanlığım yellərdə,
Baş-başa qalmışam səninlə dünya.

Çalınmır nə vaxtdır Pərinin sazı,
Bölünüb vətənim, qalıbdır azı,
Qan ağlayır, Xan Çinarım, Arazım,
Baş-başa qalmışam səninlə dünya.

## ƏDALƏTİN SÖZÜ VAR

Bir romandı şeirim,
Bir ümmandı şeirim.
Ürəklərdə bitəcək,
Asimandı şeirim.

Dünyamıza gərəkdi,
Bu çiçəklərin ətri.
Xalqımıza örnəkdi,
Şeirimin hər bir sətri.

Ruhuma bir can verir,
Qəlbimə ilham verir.
Sözümə qüvvət qatır,
Qiymətin dövran verir.

Düz yazdım bilərəkdən,
Söz yazıram ürəkdən,
Neçə solmuş arzudan,
Tanrı verən çörəkdən.

Ədalətin sözü var,
Xalqı sevən gözü var.
Şeir, sənət yolunda,
Dünya boyda özü var.

## QARABAĞIN QARA BƏXTİ

Dinlədim muğamı, mən yana-yana,
Qəlbim də ah çəkdi, batdı al-qana,
Dözməyir ürəyim, qəsd olur cana,
Qarabağın qara bəxti oyana.

Könlüm uçdu, o dağları dolaşdı,
Qönçə güllər göz yaşıma bulaşdı,
Sən oxudun, bu ürəyim alışdı,
Qarabağın qara bəxti oyana.

Səsin məni aparmışdı o dağa,
Laləzar, çiçəkli güllü bir bağa,
Gözlərimdən yaş axıtdım yanağa,
Qarabağın qara bəxti oyana.

Ədalət dözəmmir belə muğama,
Səsin yayılıbdır Milə, Muğana,
Yenə bahar gələ Azərbaycana,
Qarabağın qara bəxti oyana.

## DÖZMÜRƏM

Hədsiz bağlanmışam ana torpağa,
Əlçatmaz xəyalım uçur o dağa.
Həyatım dönübdür solmuş yarpağa,
Dözmürəm həsrətə, bu ayrılığa.

Bir quş olub uçam gedəm o dağa,
Qanad çalam, qonam kəhriz, bulağa,
Salam verəm Xan Çinara, budağa,
Dözmürəm həsrətə, bu ayrılığa.

Qoyma ümidimə yağış, qar yağa,
Baxıram ümüdlə sola, həm sağa,
Qurmusan yolumda sədlə qadağa,
Dözmürəm həsrətə, bu ayrılığa.

Danışıb gülmədim sizsiz, ay ellər,
Üstümüzdən əsdi boranlı yellər.
Həsrətdən ağardı başımda tellər,
Dözmürəm həsrətə, bu ayrılığa.

Dağların başını duman çən alıb,
Qəlbimin sevinci o yurdda qalıb.
Uşaqlıq illərim, xoş izlər salıb,
Dözmürəm həsrətə, bu ayrılığa.

Kaş gedəm, ay Allah, yenə o yurda,
Sevinclə qayıdaq vətənə, yurda.
Gücümüzü görsün o qansız murdar,
Dözmürəm həsrətə, bu ayrılığa.

Ədalət, yollarda qalıbdır gözün,
Ordumuz döyüşdə deyəcək sözün,
Bir daha deməyin, “bir az da dözün”,
Dözmürəm həsrətə, bu ayrılığa.
Dözmürəm bu ayrılığa, həsrətə…

## YOXDU

Oxuyub sözümü qiymət verrmədiz,
Qiyməti verəcək,bizi yaradan.
Sözlərə söz qatıb alışmayın siz,
Şairin sözünü verib Yaradan.

Əsrlər içindən ələnib gəlir,
Şairlər sözüylə bələnib gəlir,
Allahın eşqiylə yüksəlib gəlir,
Şair ürəyinin payı da yoxdu.

Şairlər evində şairlər çoxdu,
Sözə qiymət verib, dinləyən yoxdu.
Şairin özünün tayı da yoxdu,
Ədalət, sözünün tayı da yoxdu.

## ÇƏKİRƏM

Yadımdan çıxmadı bu sabah yenə,
Ötüb o illərin dərdin çəkirəm.
Əsən küləklərin həzin mehinə,
Əlimi uzadıb, sığal çəkirəm.

Fələk də bilməyir, nələr çəkirəm,
Dərdlərim ha çoxdu, mən də əkirəm.
Acı həqiqətdən qurtarmaq üçün,
Dağların qoynunda yollar çəkirəm.

Yollarım uzanır, uzundur yollar,
Kədərli qoynuma sarılıb qollar.
Yaranır başımda çoxlu suallar...
Bir baxın, dərdimi necə çəkirəm.

Qəlbimə yığılıb dolan dərdimi,
Atəşin oduyla belə, çəkirəm.
Qalxıbdır tüstüm də uca göylərə,
Bu açıq səmada nalə çəkirəm.

Qəlbimdə alışıb yanan dərdlərə,
İmzamı atıram, qollar çəkirəm.
Ürəkdə sızlayıb donam dərdlərə,
Dolanbac dağlardan yollar çəkirəm.

Qarabağın dərdi sinə dağlayır,
Gör neçə analar qara bağlayır.
Əsirlərim "vətən" deyib ağlayır,
O bağlı qapıya yollar çəkirəm.

Bülbül də oxuyur nalə səsiylə,
Haqqını axtarır saf nəfəsiylə.
Oxumur qəfəsdə öz həvəsiylə,
Qəfəssiz həyata yollar çəkirəm.

Ədalət, qocalma, həyatın əlvan,
Dünyama ətirli güllər əkirəm.
Düşünüb fikirlər cəm olan zaman,
Cümləyə çevirib, nə var çəkirəm.

## SÖZÜM QALSIN

Yazıram ki, sözüm qalsın,
Yazmıram ki, gözüm qalsın,
Yazıram ki, izim qalsın,
İki cahan sözüm qalsın.

Vətən tar-mar, yoxdu dözüm,
Yazmaq üçün çoxdu sözüm,
Alışıb lap, yansam özüm,
Məndən sonra sözüm qalsın.

Yanır cahan, yanır aləm,
İçiləcək söz piyaləm,
Vətən Anam, Vətən qibləm,
Ana dildə sözüm qalsın.

## ŞAİR FƏRYADI

Xəyallar dolaşır bu yaddaşımda
Eh, zaman gör məni hara aparır?
Ağlayır cığırlar, dağım, daşım da,
Ürəyim dözməyir, fəryad qoparır.

Dağlarıma qarğa, quzğun dolubdur,
Bağça, bağım viran olub, solubdur,
Həsrət çəkən gözüm üzgün olubdur,
Ürəyim dözməyir, fəryad qoparır.

Ayrılıq, dərd oldu, dolub gözlərim,
Bir həyat eşqi var, qalib gözlərim,
Düşmənə bir zərbə olub sözlərim,
Ürəyim dözməyir, fəryad qoparır.

Bayrağım yurdumda ucalacaqdır,
Əsgərim Tanrıdan güc alacaqdır,
Düşməndən qisası tez alacaqdır,
Ürəyim dözməyir, fəryad qoparır.

Şəhidin qisası alınmayıbdır,
Qazilər döyüşüb, yanılmayıbdır,
Əroğlu yurduna sarılmayıbdır.
Ürəyim dözməyir, fəryad qoparır.

# YURDSUZ BİR ŞAİRƏM, MƏNİ DEYİRLƏR

Həyat sərt sınağa çəkibdir məni,
Dağları bürüyüb, görünməz çəni,
Sevincimi alıb, veribdir qəmi,
Yurdsuz bir şairəm, məni deyirlər.

İşğaldır torpağım, solub bağları,
Həsrətə dözməyir qəlbin dağları,
Keçibdir ömrümün gənclik çağları,
Yurdsuz bir şairəm, məni deyirlər.

Anamı itirdim bir acı gündə,
Yurdumu itirdim Ulu Vətəndə,
Yaşadım yetimtək, dərd çəkdim mən də,
Yurdsuz bir şairəm, məni deyirlər.

Ötən bülbül oldum, Vətəndən ötrü,
Yanıram, kül oldum, Vətəndən ötrü,
Dərdi müşkül oldum, Vətəndən ötrü,
Yurdsuz bir şairəm, məni deyirlər.

Xəyalda yurduma səfər edirəm,
Gecəni bir təhər səhər edirəm,
Dərdimi boğuram, qəhər edirəm,
Yurdsuz bir şairəm, məni deyirlər.

Ədalət, Vətənlə çəkilir adın,
Düşmən də qoy bilsin ölümün dadın,
Nə işi var axı, torpaqda yadın?
Yurdsuz bir şairəm, məni deyirlər.

## YURDUM GÖRƏN HARDA QALDI?

Dünya yaman qalmaqaldı.
Vətən səndə izim qaldı,
Deyilməmiş, sözüm qaldı.
Yurdum görən harda qaldı?

Xoş günlərimiz bol ola,
Düşmənlə getmərik yola,
Gedəmmirəm Cəbrayıla,
Yurdum görən harda qaldı?

Yollar, bizi yurda apar,
Orda neçə obalar var.
Həyat mənə orda bahar,
Yurdum görən harda qaldı?

Döz deyirik, bu ağrıya.
Ağ deyirik, biz qaraya.
İş qalıbdır tək Tanrıya.
Yurdum görən harda qaldı?

Yurdumuz dönüb yaraya,
Təbib gərəkdir, o sarıya.
Ümidim qalıb Tanrıya,
Yurdum görən harda qaldı?

Ay Əroğlu gəzmə belə.
Bel bağlama, şirin dilə.
Vətən bölük, dərdi şələ,
Yurdum görən harda qaldı?

## ODUNLA YANIRAM, DÜNYA!

Hər dəfə mənalı söz yazıram mən,
Yazsam, gördüyümü düz yazıram mən,
Dərdim böyük, alov, köz yazıram mən,
Baş-başa qalmışam səninlə dünya.

Xəyalım dolaşıb gəzir hər yanı,
Seçmədim özümə şöhrəti, şanı,
Başıma tac bildim Azərbaycanı,
Odunda yanıram mən sənin dünya.

Dağlarım üstünə sən dağ elədin,
Bağça-bağlarıma buz-qar elədin,
Şimşək olub nədən odlar elədin?
Odunla yanıram mən sənin dünya.

Daş olub qalmışam qürbət ellərdə,
Vədəsiz ağardı, qara tellər də,
Ötüb keçdi cavanlığım yellərdə,
Tufanda qalmışam səninlə, dünya.

Çalınmır nə vaxtdır Pərinin sazı,
Bölünüb vətənim, qalıbdır azı,
Qan ağlayır, Xan Çinarı, Arazı
Dərd, qəmə dolmuşam səninlə, dünya.

Canımın yarası ağrıtmır məni,
Vətənin yarası ağrıdır məni,
Vədəsiz salıbdır saçıma dəni,
Saralıb solmuşam, səninlə, dünya.

## YATMARAM

Sən yatmısan... Mən yatmaram!
Bircə ovuc torpağımı,
Düşmən kəsə mən satmaram.
Dərmandırsa "əl verməsi",
Əlimi mən uzatmaram.

Dağdan ağır dağlar aşdım,
Zığ-palçığa həm bulaşdım,
Düşmən ilə hey savaşdım,
Dərdim ha çox, sanma çaşdım,
Barış etsəm düşmənimlə,
Yurduma mən heç çatmaram.

Bircə ovuc torpağımı,
Düşmən kəsə mən satmaram.
Dərman olsa "əl verməsi",
Əlimi mən uzatmaram.

## ÜRƏK BUNA NECƏ DÖZƏR?

Lalələrin özü gözəl.
Dəydin xətirimə əzəl.
Ürəyimdə əsdi xəzəl.
Ürək buna necə dözər?

Sanki qalxdım o dağlara,
Xəyalımda o çağlara,
Dağlar qalıb yağılara,
Ürək buna necə dözər?

Kaş, qayıdaq Qarabağa.
Ziyarətə, Qala dağa.
Atamın əkdiyi bağa...
Ürək buna necə dözər?!

Vətənimdə artıq yazdı.
Çalınan özgə avazdı.
Ədalət də baxıb yazdı,
Ürək buna necə dözər?

# DÜŞMƏNİ ƏZƏM, ÖLƏM

Yurdum işğal, qanlı göləm,
Təbib yoxdur dərdi böləm,
Məğlub kimi niyə öləm?
Qoy, düşməni əzəm, öləm.

Didir məni, yurd əzabı,
Qoymur yatam od, əzabı,
Çoxalıbdır dərd-əzabı,
Qoy, düşməni əzəm, öləm.

Qarabağ savaşım düyün,
Boğur məni o səs-küyün,
Ölsəm kəfənə bürüyün,
Qoy, düşməni əzəm, öləm.

Xəcalət çəkirəm hər gün,
Yurdumdan olmuşam sürgün,
Niyə susum, mən nə üçün?!
Qoy, düşməni əzəm, öləm.

## SOLUB QARA GÖZLƏRİM

Vətəndən danışıb dastan yazdığım,
Ruhumdan süzülür gəlir sözlərim.
İtirdim, tapmıram, yolun azdığım,
Dağlar üçün solub qara gözlərim.

Günlərim uzundur, ilə bərabər,
Sözləri yazıram dürrə bərabər,
Gözümdən yaş axır selə bərabər,
Dağlar üçün solub qara gözlərim.

Köhnə sazım asılıbdı sinəmdə,
Dilbilməzlər salıb məni kəməndə,
Yollar bağlı, əlim çatmır o kəndə,
Dağlar üçün solub qara gözlərim.

Qaşıyıb yaramı qanatma qardaş,
Ömrümün acısın, oyatma, qardaş,
Deyirəm, yol açaq, o yurda, qardaş,
Dağlar üçün solub qara gözlərim.

İzzətoğlu, nə yatmısan, dur, oyan,
İşğaldır torpaqlar, demə ki, dayan.
Üçrənli bayrağın rəngiylə boyan,
Dağlar üçün solub qara gözlərim.

## CƏBRAYIL

Gözlərim yoldadır, qulağım səsdə,
Ürəyim döyünür sanki qəfəsdə,
Taqətim tükənib, əhvalım xəstə,
Dərdinə dözmürəm, sənsiz Cəbrayıl.

Qalmışam intizar, gözüm yol üstə,
Ürəkdə qalmayıb heç bir həvəs də,
Ağlayıb düşürəm mən üzü üstə,
Dərdinə dözmürəm, sənsiz Cəbrayıl.

Ziyarət dağının lap zirvəsindən,
Ayı bulağının saf çeşməsindən,
Doya da bilmirəm xoş nəfəsindən,
Dərdinə dözmürəm, sənsiz Cəbrayıl.

Dərdlidir ürəyim, sıxılır hərdən,
"Xan Çinar" sızlayır həsrət, kədərdən.
Bir səs də gəlməyir Xudafərindən,
Dərdinə dözmürəm, sənsiz Cəbrayıl.

Uca dağlarımın zirvəsi qarlı,
Əhvalım pərişan, yollarım bağlı,
Ədalət vətənsiz qalıb zavallı,
Dərdinə dözmürəm, sənsiz Cəbrayıl.

## İŞĞAL OLUB

Dadıma çat, ey Yaradan!
Qurtar bizi, ahu-zardan,
Dözəmmirəm intizaradan,
Cəbrayılım işğal olub.

Xəbər yoxdur Qala dağdan,
Qara bəxtli Qarabağdan,
Xarı bülbül, güllü bağdan,
Şuşam mənim işğal olub.

Çalmır artıq sədəfli saz,
Kədərim çox, sevincim az,
Zülüm çəkir Dilqəm, Şahbaz,
Kəlbəcərim işğal olub.

Həkəridə, Bərgüşadda,
Xeyir işdə toy büsatda,
Oxunmayır bir "Boz at" da,
Qubadlım da işğal olub.

Ürək istər saz havası,
Buz bulağı, dağ havası,
Min dərdin, minbir davası,
Laçınım da işğal olub.

Oxçu çayın ağ balığı,
Dağılıbdı yurd qalığı,
Baharlının çinar bağı,
Zəngilanım işğal olub.

Füzulidə Azıx dağım,
Dərd olubdur Diri dağım,
Ziyarətdə buz bulağım,
O cənnətim işğal olub.

Ötüb getdi qışı, yazı,
Ömür keçib qalıb azı,
Qaqqıldaşmır durna, qazı,
Xocavəndim işğal olub.

Xocalıda Xocam yandı,
Qan töküldü, bu can yandı,
Damım-daşım, bacam yandı,
Ağdamım da işğal olub.

Bir cənnətdir hər qarışın,
Siləmmədim mən göz yaşın,
Deməyin ki, siz barışın,
Zəngəzurum işğal olub.

Xan kəndini tutdu "yan"lar,
Əsir düşdü mərd oğlanlar,
Vətən sevən Ər Oğlanlar,
Qarabağım işğal olub.

# PAY-QİSMƏTİM BELƏYMİŞ…

Bilmirəm, ağardı saçlarım nədən,
Taleyin yazısı, bəxtim, beləymiş…
Ömrüm keçdi qəm-qüssəli illərdən,
Mənə düşən pay-qismətim beləymiş.

Həyat məni yaman sıxdı, ay dostlar,
Yalan, böhtan söyləmədim kimsəyə.
Gənc yaşımda haqsızlıqla üzləşdim,
Dərd-sərimi mən demədim kimsəyə.

Dağlar aşdım, yurd itirdim Vətəndə,
Yollar keçdim mən şaxtada, buz, çəndə,
Fələk çəkməz bu dərdləri ölçəndə,
Mənə düşən pay-qismətim beləymiş.

Qəm, kədərli günlər gəlib üstümə,
Elə bil ki, fələk durub qəsdimə,
İllər keçir, dözəmmirəm tüstümə.,
Mənə düşən pay- qismətim beləymiş.

Tanrı ömrü qismətimdə bir paydı,
Gündüzlərim gecələrə bir taydı.
Qara qanlar ürəyimdə bir çaydı,
Mənə düşən pay-qismətim beləymiş.

Bilmirəm, ağardı saçlarım nədən,
Taleyin yazısı, bəxtim, beləymiş.
Ömrüm keçdi qəm-qüssəli illərdən,
Mənə düşən pay-qismətim beləymiş.

## VƏTƏNİN HALI

Vətən həsrətini çəkən qardaşım,
Soruşma necədir halı vətənin?
Başına şərabı çəkən sirdaşım,
Halına yanarmı görən vətənin?

Vətənin keşiyin çək, vətəndaşım,
İmansız, dinsizin sözünə uyma.
Qoru torpağını, yurdu, yurddaşı,
O vəhşi iblisin sözünə uyma.

Axı bu vətən də hər bir kəsindir,
Qələbə sədası ürək səsimdir,
Sevinci, gülüşü öz nəfəsimdir,
Dərdimin çarəsi yurd-vətənimdir.

Qaçqınam, köçkünəm, doğma vətəndə,
Torpağım işğaldır "qara kəfəndə",
Düşmənlər yurduma güllə səpəndə,
Sinəmin yarası yurd-vətənimdir.

## ƏDALƏT DÖZMƏYİB DƏRDLƏRƏ DÜŞÜR

Dağların başında səmavi səslər,
Yadıma buz kimi suları düşür.
Laləzar yurdları unudan kəslər,
Bataqlıq içində yarğana düşür.

Dözmürəm yurdumun bu yoxluğuna,
Gecə də, gündüz də yadıma düşür.
Dözmürəm dərdimin bu çoxluğuna,
Yoxsa, bu dərd mənim adıma düşür?!

Danışıb deməyə qalmayıb sözüm,
Deyirsən, dərdlərə mən yenə dözüm?
Yurdun həsrətilə can verim özüm?!
Həsrətdən alışıb oduma düşür.

Dağların meşəsi dönüb kolluğa,
Meyvəli meşəsi könlümə düşür.
Bu döyüşü yetirmədik sonluğa,
Yurdu azad etmək Orduma düşür.

## DÜNYAMIZ GÜLƏ

Deyirəm dostlarım, bir bahar gələ,
Dönə bu qəlbimiz, baharlı gülə.
Tanrımın verdiyi, o həyat gələ,
Hər tərəf nurlana, dünyamız gülə.

Gülzara çevrilə, bağçam, o bağım,
Qayıda yurdlarm, o gözəl çağım,
Cənnətə çevrilə, həminki dağım,
Hər tərəf nurlana, dünyamız gülə.

Həsrətim qurtara, könlüm açıla,
Yurdumda sevgimə şəfəq saçıla,
Dağımda, daşımda güllər açıla,
Hər tərəf nurlana, dünyamız gülə.

Ədalət, Qələbə sevincin yaşa,
Həyatda bu sevdan dəyməsin daşa.
Qayıdaq yurdlara, gedək birbaşa,
Hər tərəf nurlana, dünyamız gülə.

## GÖRƏMMƏDİM

Yollara çıxmışam hər yan qaranlıq.
Getməyə işıqlı yön görəmmədim.
Gözlərim tor görür, dünyam qaranlıq,
Həkim də sağaltmır, mən görəmmədim.

Dağlara gedirəm, cığırlar əyri,
Yuxarı çıxmağa yol görəmmədim.
Dağlara baxıram, o dağlar əyri,
Əvvəlki vüqarın, bol görəmmədim.

Cığırla dağlara qalxarkən qardaş,
Həmin cığrları, sən görəmmədim,
Yoxdu bu yolumda mənə bir sirdaş,
Nüsrəttək birisin, mən görəmmədim.

Qalxıram yoxuşu, dağ yuxarı mən,
Dağlarım böyükdür, aşammıram mən.
Dözmürəm hicrana, ağlamışam mən.
Anamı yanımda, mən görəmmədim.

Havaya baxıram, hava buludlu,
O parlaq günəşi, mən görəmmirəm.
Ədalət başın da, yaman buludlu,
Dostları başında cəm görəmmirəm.

## ZƏFƏR ÇALAQ BAHARDA

Asta-asta, həzin-həzin,
İlk yaz yağışı ələnir.
Elə bil ki, hər damcıdan,
Göyün alqışı ələnir.

Pıçıldaşır tumurcuqlar,
Hər tərəfdə uçur quşlar,
Cəh-cəh edir qaranquşlar.
Təbiət də gözəllənir.

Təbiətin bir çağından.
Elə bil ki, nur çilənir,
Yaradanın qucağından,
Yurda bərəkət ələnir.

Güllər bülbülə uzanır,
Bülbül gülünə nazlanır.
Sevgidən ürək güc alır,
Dünya bəzəyə bələnir.

Dağlarında əriyir qar,
Hər tərəfdə axır çaylar,
Pıqqıldaşır buz bulaqlar,
Həyat başdan düzənlənir.

Sevgi verir insanlara,
Həyatda bütün canlara.
Gəlin gedək ormanlara,
Vətən yurdu təzələnir.

Ədalətəm, bu baharda,
Yurdları qoymayaq darda.
Cəbrayılda, Qarabağda,
Zəfər çalaq gedək Yurda!
Zəfər çalaq bu Baharda!

## YOZMALADI...

Salam verib əl uzatdım,
Ora-bura yozmaladı...,
Xoş niyyəti anlamayıb,
Sözümü də azmaladı...

Günlər keçdi, illər keçdi,
Kədərləndim bu görüşdən,
Ürəyimdən nələr keçdi...,
Həyat məni sazmaladı...

Çox izlədim o cananı,
Görəndə mən həmin anı,
Lap yandırdı bax bu canı,
Ürəyimi qazmaladı...

## GEDİM YURDA, O DAĞLARA

Könlüm uçur səhər-səhər,
Əsir qalmış o yurdlara.
Gözlərimə dolub qəhər,
Həsrətəm mən o dağlara.

Qanadlanıb uçum gərək,
Yurda tərəf əssin külək,
Toxunmasın ərşi Fələk,
Gedim yurda, o dağlara.

Şimşək olub çaxım gərək,
Fırtınadan çıxım gərək,
Ayaqyalın, bir övlad tək,
Gedib çıxım, o dağlara.

Yaddan çıxmır buz bulağı,
Solub indi Xanın bağı?
Xan Çinarı, Şıxın dağı,
Gedib çıxım, o dağlara.

Könlüm gəzir Qarabağı,
Yurdda qalan məzarlığı.
Qovaq yurddan o yaltağı,
Gedim yurda, o dağlara.

Ədalətəm, dözmür ürək,
Yurdsuz qalıb, olub kövrək.
Biz yurdlara indi dönək!
Gedim yurda, o dağlara.

## ƏDALƏTİ GƏZİRƏM

Bircə an düşünək,
nə edirik biz?
Tüklərim olubdu,
yamanca biz-biz.

Səbrim də tükənib,
Dözmür bu ürək,
Şələm də belimdə,
Dözməyir kürək.

Düşüb qapı-qapı,
Ədaləti gəzirəm.
Ədaləti qəlbində,
Olan insan gəzirəm!

## QƏLƏBƏ SÖZÜ

Özün-özünə belə təriflər yaxma…
Bulanıq su kimi aradan axma…
Boylanıb o uca zirvəyə baxma…
Qiyməti verəcək zamanın özü.

Əgər qartal olub uçsan da göydə,
Axşam toranlığı endirər özü,
Alışıb ulduztək yansan da göydə,
Bir odun atəşi, yandırar közü.

Yazıram ürəkdən gələn bu sözü,
Qəlbimi yandırır Qarabağ közü,
Dözürəm illərdir, deyirəm düzü,
Ruhumda alışır, Qələbə sözü.

## ALAQ O DAĞI...

Danışım, bu dərdim dağlardan ağır,
Güllələr yurdumda yağış tək yağır.
Millətim susmasın, baxmasın fağır,
Dözmüşük, bəsdir ta, alaq o dağı...

Sağalmaz yaradır düşmənin dağı,
Yurdumda düşmənlər çıxarıb ağı...
Vurub əzək, qalmasın o yaltağı,
Dözmüşük, bəsdir ta, alaq o dağı...

Minlərlə insanın taleyi yanmış,
Həyatda arzusu ürəkdə qalmış,
Bəşərin naləsi ərşə dayanmış,
Dözmüşük, bəsdir ta, alaq o dağı...

Düşmən elimizi çapıb, talamış
Millətimi al-qanına boyamış,
Vətənimi dağıdıb parçalamış,
Dözmüşük, bəsdir ta, alaq o dağı...

Aldanma boş vədə, mala, dövlətə,
Qarı düşmən dostun olmaz heç vədə.
İgid oğul gərək vuruşa gedə,
Dözmüşük, bəsdir ta, alaq o dağı...

## SÖZ SARAYIM VAR

Yoxdur hay verənim, tək harayım var,
Dünyaya sığmayan bir xəyalım var,
Belə yaşamağa sanma halım var,
Oxuyun ay dostlar, söz sarayım var.

Dağılıb dünyada yurd saraylarım,
Qəlbimi dağıdır bu haraylarım,
Çalınıb, oxunsun gəraylılarım,
Oxuyun ay dostlar, söz sarayım var.

Vətəndən intizar köçdü cavanlar,
Ağladı, sızladı dərdli insanlar,
Yurdum da işğaldır, tökülür qanlar,
Oxuyun ay dostlar, söz sarayım var.

Ədalətin sözün tez anlayarlar.
Əkmişəm ağaclar, budaqları bar.
Biz də dünyamızda olaq bəxtiyar,
Oxuyun ay dostlar, söz sarayım var.

## YOXMU?!

Əsir qalıb dağım, daşım,
Çiskin, duman alıb başın,
Yaddan çıxmaz, ocaq daşım,
Yurdu sevən yoxmu, görən?

Çəkildi dağ, dağım üstə,
Dözmür artıq, ürək xəstə,
Tapın mənlə bir həvəsdə,
Yurdu sevən yoxmu, görən?

Qəm yüklüyəm, ürək tarım,
Dağılıbdır gülüzarım,
Vətən bölük, qalıb yarım,
Yurdu sevən yoxmu, görən?

İzzətoğlu, susma, danış!
Yetər artıq bu aldanış,
Bu həm zəfər, həm oyanış,
Yurdu sevən yoxmu görən?

## DƏRD GƏZİR MƏNİ

Dərdliyəm, ay ellər, qəm üzür məni,
Arxamca dolanıb dərd gəzir məni,
Batıbdır dəryada üzdüyüm gəmi,
Solubdur yurdumun yaşıl çəməni.

Harayım çatıbdır aya, ulduza,
Düşmənim dönübdür vəhşi qunduza,
Türk oğlu döyüşə, niyə uduza?!
Solubdur yurdumun yaşıl çəməni.

Dağılıb evlərim, sönüb ocağım,
Qəzəbdən çat verir dilim, dodağım,
Bizdən kömək umur, can Qarabağım,
Solubdur yurdumun yaşıl çəməni.

Bulaq tək çağlayıb, axır gözlərim,
Həsrətdən şimşəktək çaxır gözlərim,
Dağlara hey baxır, baxır gözlərim,
Solubdur yurdumun yaşıl çəməni.

Ucalsın yurdumda canlı Bayrağım,
Üçrəngli, ulduzlu, aylı Bayrağım,
Ədalət carçısı, şanlı Bayrağım.
Solubdur yurdumun yaşıl çəməni.

## ÖLMƏMİŞƏM...

Özüm küskün, vətən küskün,
Yaddan çıxmaz ötən pis gün,
Yurdum işğal, ürək üzgün,
Niyə mən də ölməmişəm?.

Vətənimə can verərəm,
Ürəyimdən qan verərəm,
Sinəmi meydan verərəm,
Niyə mən də ölməmişəm?

Könlüm keçir o dağlardan,
Qorxum yoxdu yağılardan,
Üzülmüşəm "ağılardan",
Niyə mən də ölməmişəm?

Düşmən bizi yaraladı,
Vətənimi paraladı,
Məni yurddan araladı,
Niyə mən də ölməmişəm?

Dünya məni qocaltdın sən,
Dünya məndən öc aldın sən.
Məni "əcəb" ucaltdın sən,
Niyə mən də ölməmişəm?

İzzətoğlu dözmür artıq,
Tər gülləri üzmür artıq,
Ta, toylarda süzmür artıq,
Niyə mən də ölməmişəm?

## KİMƏ GƏRƏK?

Rəbbimizdən güc alıram,
Yaza-yaza ucalıram.
Ömür ötür, qocalıram,
Fani dünya kimə gərək?

Göz yaşlarım selə dönüb,
Haqq-ədalət külə dönüb,
Gecələrim ilə dönüb,
Fani dünya kimə gərək?

Ömrün ötən bu çağında,
Vətənimin qucağında,
Yurdda sonüb ocağım da,
Fani dünya kimə gərək?

İzzətoğlu zaman ötür,
İllər keçir yaman ötür,
Vicdan gedir iman itir,
Fani dünya kimə gərək?

## DÖZÜRƏM

Dərdimin əzabı qurtaran deyil,
Dərdlərin kitabı, qurtaran deyil,
Ağrı, iztirabı qurtaran deyil,
Səbrim var Allahım, dözürəm hələ.

Məndən danışırlar duman da, çən də,
Zəhər dadır saf suyu hər içəndə,
Dərdlərin əlindən bezirəm, mən də,
Səbrim var Allahım, dözürəm hələ.

Bağlanıb yollarım, düşmüşəm fəndə,
Neçə illərdir ki, getmirəm kəndə,
Ruhum da sönübdür, sanki kəfəndə,
Səbrim var Allahım, dözürəm hələ.

Çalınsın vətəndə Qələbə Marşım,
Vətənin yolunda möhkəm çalışın,
Dünyadan aparır hərə bir arşın,
Səbrim var Allahım, dözürəm hələ.

Dözürəm, dözdükcə səbrim daralır,
Bu dünyamız gözlərimdə qaralır,
İzzətoğlu yurdsuz qalıb saralır,
Səbrim var Allahım, dözürəm hələ.

## QARDAŞDIR TƏBRİZ

Hələ ki, yol gedirik, yol üstəyik biz,
Əyilib, qalxırıq, diz üstəyik biz.
Ürəyim dözməyir bu ayrılığa,
Bakıdan ayrılmaz qardaşdır Təbriz.

Bax, kürək-kürəyə əriyirik biz,
Millətim böyükdür, uludur Təbriz.
Xudafərin, Şuşa tarixiyik biz,
Bakıdan ayrılmaz qardaşdır Təbriz.

Dünya uludursa, elim böyükdür,
Dövlətim, millətim, dilim böyükdür.
Düşməni qərq edən selim böyükdür,
Bakıdan ayrılmaz qardaşdır Təbriz.

Açıldı sabaha işıqlı yollar,
Zəncirini qırıb qandallı qollar,
Bağlamaz yolumu tikanlı kollar,
Bakıdan ayrılmaz qardaşdır Təbriz.

Şeiri yazıram ürəkdə bir dağ,
Alınsın yurdlarım, həm də Qarabağ.
Ədalət, sinəndə bu yaraya bax,
Bakıdan ayrılmaz qardaşdır Təbriz.

## PİRLƏRİM

Fikrimdən çıxmayır mənim ellərim,
Qəlbimdə qalıbdı həmin günlərim,
Donubdu ağızda bu gün dillərim,
O yerdə qalıbdır, mənim Pirlərim.

Hacı Qaramandı, And-Dilək yerim,
Əsdirsin Rəbbim də, bir fələk yelin,
Kəssin düşmənimin o yurddan əlin,
O yerdə qalıbdır, mənim Pirlərim.

Pirlərin tarixi qədim, böyükdür,
Diləyi biz edək, Rəbbim böyükdür,
Ona söz yazmağa təbim böyükdür,
O yerdə qalıbdır, mənim Pirlərim.

Əllərim uzanır  adına Allah,
Qaraman babamın ruhuna Allah,
Övliya sehrinə, yurduna Allah,
O yerdə qalıbdır, mənim Pirlərim.

Cəbrayıl vətəndə gözəl bir diyar,
Çələbilər nəsli böyük bir meyar.
Ədalət uzaqda, qəlbin o diyar,
O yerdə qalıbdır, mənim Pirlərim.

## DAĞLAR...

Çıxıram yollara, ağırdır yüküm,
Belimə yük olub bəs, necə çəkim?!
Bu dərdi çəkməyə çatarmı gücüm?!
Baxıram o yana, bu yana, dağlar...

Düşmənlər veribdi, yaman baş-başa,
Bağlayıb yolumu, salıb dağ, daşa,
Namərdlər qudurub, edir tamaşa,
Baxıram o yana, bu yana, dağlar...

Həsrətdən gecələr yata bilmirəm,
Bu dərdin dərmanın tapa bilmirəm,
Yurd adlı zirvəyə çata bilmirəm,
Baxıram o yana, bu yana, dağlar...

Qalmışam yollarda, kədər içində,
Bir dəniz dalğası coşur içimdə,
Ürək də dözməyir, səbrim içimdə,
Baxıram o yana, bu yana, dağlar...

Ədalətəm, dağlara etdim tamaşa,
Ağartdım başımı, dən düşüb qaşa....
Gəlirəm, yoldayam, yol çatar başa,
Baxıram o yana, bu yana, dağlar...

## SAZ HAVASI

Götür sazı, bir hava çal, ay aşıq,
Dözmür ürək, ürəyimə saz düşüb.
Kərəmi çal, bu dərd mənə pay düşüb,
Həsrət çəkən könüllərə saz düşüb.

Elə çal ki, ürəyimi dağlasın,
Mizrab, simlər dərdlərimi ağlasın,
Göz yaşlarım bulaq kimi çağlasın,
Saz havası, dağ havası yan düşüb.

Həsrətdəyəm, yolum bağlı qan düşüb,
Dağlarım var, hərəsi bir yan düşüb,
Araz çayla ortalığa qan düşüb,
Saz havası, dağ havası yan düşüb.

Bir hava çal Şəhriyarım oyansın,
Diri dağda, Araz çayım dayansın.
O tay, bu tay al-əlvana boyansın,
Saz havası, dağ havası yan düşüb.

Xudafərin körpüsündən keçməyə,
Dağlarımda buz bulaqdan içməyə,
Millətləri millətimdən seçməyə,
İzzətoğlu, saz havası yan düşüb.

## DE NECƏ DÖZÜM?

Vətən yurdlarımız dağılıb, fələk,
Sinəmdə döyünmür, artıq bu ürək
Saçım da ağardı, dərdimdən, fələk,
Yurdsuz günlərimə de necə dözüm?

Yurdumda düşmənlər gəzirlər qoşa,
İblis simasında, o baş, bu başa,
Şərab piyaləsin çəkiblər başa,
Düşüblər canına, yurdlarımızın.

Dağıdıb yurdumu, çatıbdır daşa,
Xan Çinar düşmənlə qalıb baş-başa,
Verməyir sirrini, satqın sirdaşa,
Çinarın halına mən necə dözüm?

Edək olanlara necə tamaşa?
Səbrim də qalmayıb, dosta, qardaşa,
Düşmənə atəşlə deyək birbaşa!
Yurdsuz günlərimə de necə dözüm?

İçimə dolubdur fırtına, külək,
Şəhid qanı yerdə qalmasın gərək,
Düşmənin nəfəsin yerində kəsək,
Ana ağısına mən necə dözüm?

Ədalətəm, yurdumdur mənim gözüm,
Əsir qalmış yurda neçə il dözüm?
Sağalmayıb yaram,  sönməyib közüm,
Yurdsuz günlərimə de necə dözüm?

## UNUTMAYAQ, O QARA GÜNÜ!

Şəhidlərə baş daşı oldu,
qara mərmər,
Qapqara...
Qara yazılmışdı,
igidlərin talehləri də,
Qapqara...
Qara daşlara yazıldı,
İgidimin Ad Günü.
Qalmadı sonraya,
O İgidin şad günü.
Güllər səpək onlara,
həmişəki Ad günü.
O qara daşa döndüyü,
həmin günü,
Qapqara günü.
Ədalət,
Unutma,
Şəhidin qara daşa döndüyü,
Qapqara günü.

## GÖRMƏDİM

Gəzdim təpələri, gəzdim dağları,
Qarabağ dağıtək dağlar görmədim.
Neçə bostan gəzdim, neçə bağları,
Yurdumun bağıtək bağı görmədim.

Həsrətdən alışıb yandı bu canım,
Dərdini çəkibdir, ürəyim, canım,
Üzüldüm həyatda, saraldım, canım,
Vətən ağrısıtək, ağrı  gördüm.

Qurumur gözümdən axan göz yaşı,
Məzarlar sızlayır, ağlayır daşı,
Ana qucaqlayır, qara baş daşı,
Mən belə naləni, dağı görmədim.

Nə qədər qıvrılaq röya içində?
Nə qədər qovrulaq xülya içində?
Nə qədər üzsən də dərya içində,
Dəryada boğuldu, sağı görmədim.

Gəzirəm ay ellər, ellər içində,
Bir çoşan çay oldum, sellər içində,
Düşmənim ətrafda, fellər içində,
Haqqa, düzə baxan çağı görmədim.

Düşmüşəm zülmətə, dumanda, çəndə,
Boğuldum tüstüdə, düşdüm kəməndə,
Ömür taleyimdə yollar keçəndə,
Qaranlıq zülmətdə ağı görmədim.

## QAN YAĞIR

Yenə Payız gəlir,
Yağış əvəzi qan yağır,
iki gözlərimdən.
Üşüyür içimdə,
Qışın şaxtaçı vurub,
isitməyib yayın istisi də,
Ürəyimdə donub qalıb,
O alov, istisi də.
Dünyanı qan görürəm,
Yoxsa qan içindəyəm?
Özüm də bilmirəm,
Qanlı günlər yaşadım,
Hardan yağdı qan yağışı?

## QORXUN!

Bu gün yağış yağır… qorxma yağışdan!
Siz qorxun Allahdan, yağan qarğışdan,
Səsləyib car çəkən, haqq çağırışdan,
Vətənə layiqli bir övlad olun!

Eh, dünya, kimlərin gəlib də getdi,
Kimlər də dünyayla söz-söhbət etdi,
Bəzi yaramazlar töhmət də etdi,
Vətənə layiqli bir övlad olun!

Ədalətəm, bu sinəm də doludur,
Tutduğum yol haqq, ədalət yoludur,
Deməyək ki, bu dünyanın sonudur.
Vətənə layiqli bir övlad olun!

## OXU, BÜLBÜL

Bülbül, nalə çəkdin, bu necə səsdi?
Qərib düşən ürəyim yaman əsdi.
İllər ötdü, ömür keçdi, tələsdi,
Saç ağardı, bel büküldü, ta, bəsdi.

Ürəyimin sarı simi oyandı,
Axan çaylar bir anlığa dayandı,
Sevinc hissim kədərimə boyandı,
Göz yaşlarım selə döndü, ta, bəsdi.

Qəlbimi sızlatdı yanıqlı səsin,
Keçmişə qaytardı məni nəfəsin.
Sarvan tapa bilmir sanki dəvəsin.
Karvan gedir, cığır qalır, ta, bəsdi.

Oxu bülbül, dərd calama dərdimə,
Dərdim böyük, dərd bulama dərdimə,
Oxuduqca, sən qoşuldun dərdimə,
Dərd əlindən üzülmüşəm, ta, bəsdi.

Ədalətəm, vətənimə bağlıyam,
Kür, Araza, Xəzərimə bağlıyam,
Qaramanlı məbədimə bağlıyam,
Yandı ürək, hey sızladı, ta, bəsdi.

## XAN ARAZIM

Araz üstə qurulan bir bəndə bax,
Xudafərin kimi qədim, kəndə bax,
Kimlər salıb bizi belə fəndə, bax?
Hanı, ər qeyrətli, oğul, qızlarım?

Çəkilib araya tikanlı simlər,
Bu milləti böldü Arazla kimlər?
Nə vaxt sınacaqdır, bəs bu tilsimlər?
Hanı, ər qeyrətli, oğul, qızlarım?

Millətimin, Ozan sazı, kamanı,
Verməməli düşmənlərə amanı,
Çağır Xətaini, mərd Cavad Xanı,
Hanı, ər qeyrətli, oğul, qızlarım?

Neçə vaxtdır coşmur Araz, lal axır,
Xan Arazım bizlər üçün darıxır,
Əroğluyam qələmimdən od yağır,
Hanı, ər qeyrətli, oğul, qızlarım?

## FAĞIRA BİR BAX

İş adamı, kasıbın üzünə bir bax,
İçindəki yanan közünə bir bax,
Ürəkdə yığılan sözünü dinlə,
Bu fağır bəndədə dözümə bir bax.

Ey adam, pulun var, vəzifən də var,
İstədiyin qədər xəzinən də var,
Bir tikə çörəkçün gəzinən də var,
Bu fağır bəndədə dözümə bir bax.

Haqdan, ədalətdən qaçan birisən.
Çox murdar oyunlar açan birisən,
Az qala kasıbın qanın içəsən,
Bu fağır bəndədə dözümə bir bax.

Bu yaramı tərpətməyin, qoy susum,
Haqq axtarıb, yol gözləyim, mən busum?
Söz də keçmir, ödəməyəndə rüsum,
Bu fağır bəndədə dözümə bir bax.

Yuxumu qovuram, göydə ay, solğun,
Həyat məni üzüb, olmuşam yorğun,
Yenə qəm-kədərlə de, nə yoğurum?
Bu fağır bəndəndə dözümə bir bax.

Əroğlu, bunların gözləri doymur,
Nə edirəm hirsim, hikkəm soyumur,
Kasıblar əl açır, namərdlər qoymur,
Bu fağır bəndəndə dözümə bir bax.

## AY GÜNƏŞİM, AY, ULDUZUM

Qız, əlini ver əlimə,
Məni salmısan felinə,
Gəl sığal çəkim telinə,
Ay günəşim, ay, ulduzum.

Bu nə baxış, bu nə gözdü?
Bu nə çöhrə, bu nə üzdü?
Ədalət də, hicrinə dözdü,
Ay günəşim, ay, ulduzum.

Boyun bəstə, belin incə,
Dilin qaymaq, dodaq qöncə,
Mən üzüldüm sən gəlincə,
Ay günəşim, ay, ulduzum.

Varmı sənin bir insafın?
Bu sevgidə nə günahım?
Tanrıya çatıbdır ahım,
Ay günəşim, ay, ulduzum.

Əroğlunu saldın dərdə,
Necə dözüm mən bu dərdə?
Şairi boğdun, kədərdə,
Ay günəşim, ay, ulduzum.

## TÜRKÜN SƏSİ

Bir səs gəlir qulağıma,
Bu bir Tanrı sədasıdır.
Bu Turanın gur səsidir.
Dünyaları fəth edəcək,
Yeni dünya ölkəsidir.
Bilməlidir bunu hər kəs.
İki qardaş yan-yanadır,
Araz ortada sərhəddir,
Dərdi sinəmi qanadır.
Yaraşırmı bu ayrılıq?!
Azərbaycan övladına?
Çox dözmüşük, qar, çovquna,
Parçalanmış bu ölkəmiz,
Qaysaqlanmır yaramız.
Birləşməsək biz gedirik,
Bi minvalla görən hara?
Qalx, Türk qardaşım, Oyan!
Al şəfəqli bayrağına sən də boyan.
Kimdi bizi parçalayıb,
Ağrı, dərdimizi duyan?!
Şəhid edib övladını,
Məzarlara vaxtsız qoyan?
Qan içində körpələrin,
Ahılların gözün oyan?
Vətən-Ana, Ana-Vətən,
De, bunların nə fərqi var?

Fələk verib,
Türk oğluna belə dərdi?
Ərdoğana miras qalıb,
Turanının elə dərdi?
Tanrı oğlu, Türk adamı-
Əroğlunu, həm mərdi,
Bu döyüşün çünki sonu,
Qələbədi, zəfərdi!!!

## ANA DİLİM

Ana dilim var olsun,
Qoy aləmə car olsun,
Sanki baldı, şəkərdi,
Sevməyənə ar olsun.

Ana dilim ucadır,
Ulu vətən qocadır,
Bu dünya bir bacadır,
Tanrı bizə yar olsun.

Dilim türkdür, ürəkdir,
Dəmir yumruq, biləkdir,
Haqqa çatan diləkdir,
İstəməyən xar olsun.

## SAF EŞQİMƏ GÖRƏ...

Mənim bir üzüm var, bircə sifətim,
İküzlü insana vardır nifrətim.
Var, dinim, imanım, həm də hümmətim,
Rəbbimə möhtacam, onun quluyam.

Aydın məsləkim var, iradəm mətin,
Düşsəm də borana, olsa da çətin,
Lap dərimi soyub, doğrasan ətin,
Rəbbimə möhtacam, onun quluyam.

Əroğlu, sözünlə qalxdın göylərə,
Bir kəlmə demədin, sən nahaq yerə,
Fəxr edirəm bu saf eşqimə görə,
Rəbbimə möhtacam, onun quluyam.

## YANAN DEYİLƏM

Alışıb yanıram, hər axşam, səhər,
Ötüşür illərim, çörəyim zəhər,
Rəbdən güc alıram mən də bir təhər.
Haqqı, ədaləti danan deyiləm.

Ağlatdı, sızlatdı, ötən illərim,
Ömrümə tikan tək bitən illərim,
Sinəmə çəkmisən sitəm, illərim,
Allahın izniylə sınan deyiləm.

Ay Əroğlu, dağlarına bir də gəl,
Dağların açıbdır sənə qucaq, əl,
Düşmənin bağrını, ürəyini dəl,
Bu dərdə sonacan yanan deyiləm.

# XOCALI NALƏSİ

Ah, naləm göylərə qalxıb yenə də,
Xocalı naləsi yandırır məni,
Yeri, göyü oda yaxıb yenə də,
Qəlbimi incidir, sındırır məni.

Neçə soydaşımın qəlbin qopardı.
Ana-bacıları girov saxladı,
İşgəncə, zülümlə əsir apardı,
Bir böyük millətin səbrin yoxladı.

Dözmək üçün ürək lazım, ay zalım,
Səsinə səs verən tapıla gərək,
Düşməndən qisası mən necə alım?
Onun da ürəyi çapıla gərək.

Gücüm çatır ayaq üstə qalmağa,
Düşmənləri əzib, vayını verək.
Birləşək ki, qalxaq qisas almağa,
Biz onlara gücümüzü göstərək.

## "ALLAH ADAMI"

Necə də kövrəkdir şair ürəyi,
Toxunma hissinə, partlaya bilər.
Aləmi bəzəyir, sözü, diləyi,
Baxımsız qalanda çatlaya bilər.

Aləmə car çəkir, gəzir hər yanı,
Tanrıya çatdırır, sözü, diləyi.
Önündə baş əyir onu duyanın,
O, eşq mübtəlası, sevgi mələyi.

Bu ilhamı mənə vermiş Yaradan,
Oxuyub, dinləyir, məni el-hamı,
Mən varı dövləti çıxartdım yaddan,
Ona görə oldum "Allah adamı".

Əroğlu, cahanın bir haq səsi ol,
Sən Vətənin müsəlləh əsgərisən,
Şairlik həm çətin, həm də ağır yol,
Tanrıdan qazandım bu şakəri sən.

## BİLMƏDİM

*(Şəhidlərimizin dilindən)*

Bağışla, ay Ana, bağışla bacım,
Sizləri təbrikə gələ bilmədim.
Ağlama anacan, başımın tacı,
Dərdini dərdimlə bölə bilmədim.

Danışıb-güldünmü, mənsiz bir gecə?
Bilirsən, soyuqdur yerim, “of!”, necə?
Qıydılar oğluntək gör necə gəncə?
Gözünün yaşını silə bilmədim.

Hər gecəm dönübdür ilə, neyləyim?
Döndü cavanlığım külə, neyləyim?
Məzarım qərq oldu, gilə neyləyim?
Yaram da ağrıyır, ölə bilmədim.

Sizə qurban oldu, ürək, canımız,
Torpağa çiləndi axan qanımız,
Düşəcək dillərə bu dastanımız,
Xalqımı düşmənə kölə bilmədim.

Solub getdi, pöhrə-pöhrə arzular,
Şəhidlikdən daha böyük arzu var?
Övlad üçün bundan da saf yazı var?!
Nərə çəkdiyimi, nalə bilmədim.

İşğaldan qurtardı el, halal olsun,
Bizlər vuruşduq ki, istiqlal olsun,
Qələbə çaldıq ki, düşmən lal olsun,
Əroğluyam, düşdüm dilə, bilmədim?

## BİR TARİX YAZIRSAN

İlhamım göz açıb şeirlərimdə,
Misralar söz açıb, şeirlərimdə,
Sözüm işıq saçıb şeirlərimdə,
Bir tarix yazırsan, ay İzzət oğlu.

Şaxtalı, boranlı günlər keçmisən,
Qəmli anlar, toy-düyünlər keçmisən,
Əsrin acı badəsini içmisən,
Bir tarix yazırsan, ey İzzət oğlu.

## ŞÜKR EYLƏ...

Dünyanın adına sən qara yaxma,
Bulanıq çaylartək aradan axma,
Dünyanı xəlq edib Yaradan, baxma,
Baş əyək Tanrıya, Allah evinə,

Namaz qıl, dua et, qəlbini düz, qoş,
Hər yoldan keçənə baş qoşma, boş-boş,
Gəzib sən dolaşma dünyanı sərxoş,
Şükr eylə Tanrıya, Allah evinə?

Əroğlu, bənd olma, yoldan ötənə,
Sənə dərs deməsin yoldan ötən, ə,
Bağlandın xalqına, doğma vətənə,
Şükr eylə Tanrıya, Allah evinə?

## GƏL, "ƏDALƏT İŞIĞINA"

Başı qarlı dağ görəndə,
Bar-bəhərli bağ görəndə,
Keyfimizi çağ görəndə,
Şükr edirəm Yaradana.

Bağça-bağda bar görəndə,
Alma, heyva, nar görəndə,
Xalqı bəxtiyar görəndə,
Şükr edirəm Yaradana.

Nə gözəldir budaqda gül,
Gəzəndə yarını bülbül,
Telləndə sarı sünbül,
Şükr edirəm Yaradana.

Əzizim, yar işığına,
Xəbər ver saz aşığına,
Gəl, "Ədalət İşığına",
Şükr edirəm Yaradana.

## HARA GEDİR DÖVRAN...

Aradım ətrafda min, yüz adamı,
Tapmadım içində bir düz adamı,
Şər atır möminə veçsiz adamı,
Hara gedir dövran, gör hara, dünya?

Gündüzüm gecəmtək qapqara, qardaş,
Çəkmə Ədaləti sən dara, qardaş,
Qalmışam yalvara-yalvara, qardaş,
Hara gedir dövran, gör hara, dünya?

## ÇAL, OXU!

*(İstedadlı gəncimiz Gədəbəyli Məhərrəmova İlahə Ramiz qızına ithaf edirəm)*

Aşıq qızım, sıx sazını sinənə,
Ötüb keçən gəncliyimə yan, oxu!
Xatırladım o illəri mən sənə,
Həsrətimə, kədərimə, yan, oxu!

Haqqımı boğdular gözəl dünyada,
Cavanlığım ötüb, gedibdi bada,
Yurdlarım işğaldır, qalıbdır yada,
Həsrətimə, kədərimə, yan, oxu!

Saz inləyir, qulaq asıb, ağlaram,
Kaş, dönəydim bir də gözəl çağlara,
Sən çaldıqca ruhum uçdu dağlara,
Həsrətimə, kədərimə yan, oxu!

Telli sazı sən çalanda ağladım,
Ürəyimi bu atəşdən dağladım,
Kədərimdən coşub yenə çağladım,
Həsrətimə, kədərimə, yan, oxu!

Mənə nə lazımdı, de, bundan sonra,
Ədalət qocalıb solandan sonra,
Ömrümün son günü olandan sonra,
Həsrətimə, kədərimə yan, oxu!

## NƏ DEYİM?

*(Sözə dəyər verməyi bacaran, özünəməxsus səsi ilə aləmə car çəkən, sözün həqiqi mənasında vətənpərvər, əziz eloğlum, Qarabağ Qazisi Telman Qubadlıya ithaf edirəm)*

Bizlər orda, doğulmuşuq, Əroğlu,
Cəbrayıl, Qubadlı biz, dağlar oğlu,
Obamızdan ayrı düşdük, eloğlu,
Əsir düşmüş, o yurdlara, nə deyim?

Kimdi, məni bu sitəmə çəkənlər?
Yurdum işğal, torpağımı əkənlər?
Düşmən deyil, Şəhid qanı tökənlər?!
Əsir düşmüş, o yurdlara, nə deyim?

Tar-mar olub, o yurdlarım, izlərim,
Düşmən namərd, gecə, gündüz izlədim,
Dərdim böyük, dərdlərimi gizlədim?
Əsir düşmüş, o yurdlara, nə deyim?

Acı göz yaşını axıtma, qardaş,
Səsindən tapmışam, özümə sirdaş,
Necə deyim, necə gülüm, ay qardaş?
Əsir qalmış, o yurdlara, nə deyim?

Səsinlə car çəkdin, bütün aləmə,
Ədaləti bu səs salıb ələmə,
Qan-yaş tökən, əlimdəki qələmə,
Əsir qalmış, o yurdlara, nə deyim?

## ƏDALƏT CARÇISI, SÖZÜYƏM ŞAİR

*(Dahi şairimiz Nizami Gəncəviyə)*

Dahilər ölkəsi mənim bu ölkəm,
Sözə söz calayıb kəlamlar əkəm,
Dərdimi saxlayıb ürəkdə çəkəm,
Ədalət carçısı, sözüyəm, şair.

Dərdlərim qalaqdır, yatır içimdə,
Arzum gələcəyə məğrur keçim də,
Ruhum da alışıb yanır içim də,
Ədalət carçısı, sözüyəm, şair.

Əsr, qərinələr dolanıb keçir,
Kimsə tiryək çəkir, həm şərab içir,
Əroğlu da Ulu Tanrını seçir,
Ədalət carçısı, sözüyəm, şair.

## SEVƏSƏN

Sev, elə sev ki, bir onu sevəsən!
Sinəndə vurulan eşqin sezəsən!
Cismindəki qəlbində varsa əgər,
Bülbül gülü sevən kimi, sevəsən.

Gülləri əkdiyin an, düşünəsən,
Çiçəklərin bir dənəsin dərəsən.
O çiçəyin qoxulayıb ətrini,
Qəlbində əbədi, eşqi görəsən.

Sevgini vermişdir bizə Yaradan,
Sevgi dolu bağçaların barından.
Sevgidən yaranmış, bütün kainat,
Ədalət razıdır Ulu Tanrıdan!

## OĞLUMA

Vətən, yurdum işğal olub,
Dözmür artıq səbrim dolub.
Qeyrətinə qurban olum,
Qoyma qala, darda Oğul!

Vətənimə girib düşmən,
Qeyrətimi görüb düşmən,
Nəyim var, sinirib düşmən,
Qoyma qala, darda Oğul!

Qocalıram, illər ötür,
Yağı hiylə dillər ötür.
Həyat keçir kələ-kötür,
Qoyma qala, darda Oğul!

Ədalətəm, ömür bitir,
Dağlarımdan soraq gətir.
Ömrümüzə olsun çətir,
Qoyma qala, darda Oğul!

## HARAY

*(Vətənimizin ərazi bütövlülüyü uğrunda döyüşlər zamanı əsir düşmüş əsgər-zabitlərimizə, baba-nənələrimizə, ata-analarımıza, bacı-qardaşlarımıza, körpələrimizə ithaf edirəm)*

Ədalətdən gəlir, haray,
Əsir düşən igidlərim.
Dözmür artıq, ərənlərim,
Qız-gəlinim, körpələrim.

İtgin düşən atam, haray,
Əsir düşən anam, haray,
İtgin düşən bacı, qardaş,
Körpəm üçün yanam haray.

Əsir düşən nənəm, haray,
İtkin düşən nəvəm, haray,
Qalmayıbdı bircə saray,
Tar-mar olub, Obam, haray!

Göz yaşları tökən bacım,
Yaddan çıxmır ağrım, acım.
Qarabağdır başda tacım,
Əsir düşüb, aman haray!

Əsirlərim gözü yolda,
Qollar bağlı sağda, solda,
Baş əyməyir o haqq yolda,
Kömək olun Tanrım, haray.

Zülmkarın zülmündəyik,
Demirik ki, pis gündəyik.
Biz də doğma Vətəndəyik,
Kömək olun, bizə haray...

Səsin məni qoymur yatam,
Səsinizə mən səs qatam.
Azad olam, mən də yatam,
Yolum bağlı, ellər haray!

Bulud olub, şimşək çaxam,
Dəniz olam, coşam qalxam,
Dərya olub, yurda axam,
Yanır dağım, daşım, haray.

Yurdumuzda gəzir yağı,
Tapdayıb o əzir bağı,
Qalıb əsir, yesir dağı,
Gözü yaşlı dağım haray.

Aman haray, yurdum haray,
Sızlayan vücudum haray,
Ürəyimdə dağım haray,
Bağlı qapım, evim haray.

Dəmir qapı arxasında,
Cırıq-salxaq çuxasında,
Gözü bağlı, sinə dağlı,
Yol gözləyən əsir haray!

Ədalətəm, bir bayrağam,
Xalq yanında üzü ağam.
Yatmamışam, mən oyağam.
Dalğalanam, əsəm haray!
Pis nəfəsi kəsəm haray!

## QARDAŞIMA

*(Can qardaşım Ənvər İzzətoğlu Qafarova itihafən)*

Bir şeir nədir ki, yüzün yazaram,
Hər sözüm qurbandır can qardaşıma,
Ürəkdə yeri var, qəlbdən yazıram,
Canım da qurbandır qan qardaşıma.

Böyüyün, kiçiyin zəhmətin çəkdin,
El, Oba qayğısın mərd, mətin çəkdin,
Dövlətin, millətin qeyrətin çəkdin,
Canım da qurbandır qan qardaşıma.

Arxadır, dayaqdır, var olmasıyla,
Seçilir dağlarım qar olmasıyla,
Ağac da başında bar olmasıyla,
Canım da qurbandır qan qardaşıma.

Görünən dağlara olmur, bələdçi;
Tanrıdan güc al ki, odur, bələdçi!
Vətənə arxa ol, bərk dur, bələdçi!
Canım da qurbandır qan qardaşıma.

Əllini aşırdın, yüzə nə qaldı?
Uca dağlar aşdın, düzə nə qaldı?
Həyat özü fani, sözə nə qaldı?
Canım da qurbandır qan qardaşıma.

## OXU, TƏRANƏ XANIM!

*(Sənətinə hörmət bəslədiyim müğənnimiz Təranə xanım Nurluya)*

Oxu, səsin gəlsin, Təranə xanım!
Alındı yurdlarım, Şuşam, Ağdamım,
Şad ol, Pənahəli-ulu Xaqanım,
Dünya da tanıdı Azərbaycanı.

Səsinlə vətəni, sənəti andın,
Şaqraq zəngulənlə alışdın, yandın,
Özünü əsgərə, sən bacı sandın,
Dünya da tanıdı Azərbaycanı.

İgidlər vuruşdu, vətən uğrunda,
Bir tarix yazdılar zəfər yolunda,
Sən özün də igid əsgər rolunda-
Dünya da tanıdı Azərbaycanı.

Ədalət, vuruşduq, qisas da aldıq,
Düşmənin canına vəlvələ saldıq,
Üçrəngli bayraqla qalxdıq, ucaldıq,
Dünya da tanıdı Azərbaycanı.

## "DOSTLARA"

Ortalıqda gəzib, gendə gəzdilər,
Gizlicə qaçdılar, tində gəzdilər,
Pəyədə gizlənib, hində gəzdilər,
Belə olmayaydı gərək "dostlar"ım.

Elə ki, düşdülər çətinə, dara –
Kömək aradılar, yada ki, para,
Ayə, bu məsləklə gedirsiz hara?
Belə olmayaydı gərək "dostlar"ım.

Əl verib yaramı sarımadılar,
İşimə-gücümə yaramadılar,
Dar gündə axtarıb aramadılar,
Belə olmayaydı gərək "dostlar"ım.

Bu ömürdən vəfa ummaq çətindir,
Sadiq dostun rolun danmaq çətindir,
Xain kəsi dostun sanmaq çətindir,
Belə olmayaydı gərək "dostlar"ım.

Əroğlu, dostluqda möhkəm ol, möhkəm,
Bu dost söhbətində vicdana söykən,
Utanma "dostum var!" sözün deyərkən,
Belə olmayaydı gərək "dostlar"ım.

## ANA LAYLASI

*(Mərhumə Anam ZEYNƏB İBƏQIZINA ithaf edirəm)*

Dibçəkdə əkmişik dağ çiçəyini,
Çiçək də dağlardan ayrı qalarmı?
Bülbülü saxladıq biz dar qəfəsdə,
Güllərin ətrini yazdan alarmı?

Analı həyatım təmiz bir nəfəs,
Anasız bu həyat mənə dar qəfəs,
Ana laylasına varmı, de əvəz?
Laylası muğamdır, cazdan alarmı?

Qaynayır bulaqtək gözlərimdə yaş,
Görəydin yurdunu, sağlığında kaş,
O toy qazanında, bişirəydin aş,
Ocaq öz istisin, buzdan alarmı?

Uşaqdım, o zaman, deyərdin lay-lay,
Daim yoxluğuna edirəm ah-vay,
Hey yazıb, pozsam da, yetişməz haray,
Şair də ilhamın yasdan alarmı?

Qənim kəsilmisən hər gün yuxuma,
Nə vaxtdır gəlmirsən şirin yuxuma,
İzzətoğlu kimdən küsə, nə uma?
Ürəyim ruhunu, sazdan alarmı?

## ŞƏHİD BACISI

*(Bərdə şəhərindən olan Qarabağ döyüşlərində Şəhidlik zirvəsinə ucalan iki qardaşları-Tahir və Mahirin bacısı Nərgiz Xanımın timsalında Bütün Şəhid bacılarına ittihafən)*

Başını uca tut, Şəhid bacısı!
Yaşadıq hamımız qardaş acısı,
Bu da bir taledir, Vətən acısı,
Vətənin qeyrətin çəkdi Şəhidlər.

Başını uca tut, Şəhid bacısı!
Cənnətdə əbədi gəzəndi Şəhid,
Düşmənin başını əzəndi Şəhid,
Düşmən atəşinə dözəndi, Şəhid.

Başını uca tut, Şəhid bacısı!
Tahirin, Mahirin qisasın aldıq,
Tarixdə biz yeni Qələbə çaldıq,
Şəhidin qanıyla biz də ucaldıq.

Başını uca tut, Şəhid bacısı!
Axıdıb göz yaşı, ağlama, bacım,
Varsa da kədərim, varsa da acım,
Şəhidlər öyüncüm, başımda tacım.

Başını uca tut, Şəhid bacısı!
Qardaşlar həsrətin çəkən bacısı,
Üçrəngli Bayrağı öpən bacısı,
Nərgizin böyükdür ağrı, acısı,

Başını uca tut, Şəhid bacısı!
Əroğlu da duyur qardaş itkisin,
Allah şəhidlərə rəhmət eyləsin,
Bir daha Üçrəngli Bayraq enməsin.

## ŞƏHİD LEYTENANT RUSLANA

*(Sumqayıt şəhərindən olan Şəhidimiz Leytenant Ruslana ithaf edirəm)*

Vətən tarixinə yazdı adını,
Yerinə yetirdi zəfər andını,
Göstərdi döyüşdə istedadını,
Hamıya örnəkdir Şəhid Ruslanım.

Leytenant rütbəli bir zabitiydi,
Savadlı, cəsurdu, ağlı itiydi,
O, qorxmaz, cəngavər, mərd igidiydi,
Hamıya örnəkdir Şəhid Ruslanım.

Ölsəm: "Şəhid", qalsam: "Qaziyəm"- dedi,
Vətənçün ölməyə razıyam dedi,
Canını el üçün fəda eylədi,
Hamıya örnəkdir Şəhid Ruslanım.

Qardaşı Səyavuş başqa bölgədə,
Vuruşdu Laçında, lap ön cərgədə,
Şan-şöhrət qazandı, bütün ölkədə,
Hamıya örnəkdir Şəhid Ruslanım.

Oldu sevimlisi yaxın, uzağın,
Uca tutdu Azərbaycan bayrağın,
İndi qazandığı ad-sana baxın:
Hamıya örnəkdir Şəhid Ruslanım.

## ŞƏHİD ASİMAN

*(Sumqayıtda "İZZƏT" MMC Tədris Mərkəzində biliklər qazanmış Şəhidimiz ASİMAN NİYAZ OĞLUNA)*

Vətən igidləri ayağa qalxdı,
Vətənin Şəhidi, İgid Asiman.
Sevən ürəkləri yandırdı, yaxdı,
Vətənin Şəhidi, İgid Asiman.

Vətənə ucalıq fərəh gətirdin,
Qaldırdın bayrağı, şərəf gətirdin,
Xalqına alqışlar, "bəh-bəh" gətirdin,
Vətənin Şəhidi, İgid Asiman.

Cavan ömrü fəda etdin Vətənə,
Qeyrətinlə qurban getdin Vətənə,
Qismət olmaz Şəhidlik hər yetənə,
Vətənin Şəhidi, İgid Asiman.

Ədalətəm, göz yaşlarım qurumaz,
Bu su elə bulanıbdır, durulmaz,
Şair qəlbim səni öyər, yorulmaz,
Vətənin Şəhidi, İgid Asiman.

## XOCALI FACİƏSİ

*(Xocalı rayonunun Meşəli kəndində valideynləri və iki qardaşı Şəhid olmuş Quliyev İbrahim Qənimət oğluna ithaf edirəm.)*

Meşəli kəndinin meşəsi yandı,
Meşəli kəndində neçəsi yandı,
Meşəli kəndinin çeşməsi qandı,
Halına dözməyir şair ürəyi.

İbrahim, necə də qəmli baxırsan?
Yandırıb özünü oda yaxırsan,
Acı göz yaşıma dönüb axırsan,
Halına dözməyir şair ürəyi.

Xocalı atəşi yanır içimdə,
Neçə arzularım donur içimdə,
Şuşam od içində, alov içində,
Halına dözməyir şair ürəyi.

Vətənin yolunda igidlər getdi,
Gör neçə insanın taleyi bitdi,
Elimi, Obamı, tar-mar etdi,
Halına dözməyir şair ürəyi.

Ay Haray, Qarabağ yanır, amandır,
Bağlıdır yollarım xeyli zamandır,
Düşməni əzməyin vaxtı tamamdır,
Halına dözməyir şair ürəyi.

## ƏSİRLƏRİM DARDADIR...

*(Vətənimizin ərazi bütövlüyu uğrunda itgin düşmüş və əsirlikdə qalan əsirlərimizə ithaf edirəm)*

Yollarım bağlıdır, gözüm yoldadır,
Taqətim hələ var, gücüm qoldadır,
Bu ürək çatlayır, qandal qoldadır,
Azad edək əsirləri, dardadır.

Nə tez də unutduq ötən illəri,
Od-alov içindən keçən günləri,
Əsirlikdə qalmış bağlı dilləri,
Azad edək əsirləri, dardadır.

Vətən param-parça düşmənim ha çox,
Qələmim olubdur əlimdə bir ox,
Düşmənin qəlbinə vuram gərək ox,
Azad edək əsirləri, dardadır.

Biz keçən günləri salmasaq yada,
O səslər qalarmı daşda, qayada?
Çataq köməyinə, çataq haya da,
Azad edək əsirləri, dardadır.

Güvənək xalqıma, ulu soyada,
Tarixi var, şöhrəti var dünyada,
Yetər tufan qopa, bizi oyada,
Azad edək əsirləri, dardadır.

Gecələr yatmayır bizim əsirlər,
İncidib nəfəsin, səsin kəsirlər,
Nağıllar danışır "məmmədnəsirlər",
Azad edək əsirləri, dardadır.

Dözməyir bu ürək, dözməyir vallah,
Gecələr yatmadım, dinclikdən uzaq,
Kömək ol xalqıma, sən özün Allah,
Azad edək əsirləri, dardadır.

Düşmüşük vətəndə qəfəsə, tora,
Gedə də bilmirəm, mən hələ ora,
Düşməni göndərək gərək biz gora,
Azad edək əsirləri, dardadır.

Yurdum ola-ola mən yurdsuz gəzim?
Əsirdir yurdlarım, mən rahat gəzim,
Haydı, igidlərim, sizədir sözüm:
Azad edək əsirləri, dardadır.

## AD GÜNÜNÜZ MÜBARƏK!

*(Dəyərli dostum, ölkəmizdən xaricdə yaşayan və ürəyi vətənlə döyünən Yaşa Paşayevə ithaf edirəm)*

Üzündə təbəssüm, xoş dilək olsun,
Ürəyin sevinclə, fərəhlə dolsun,
Təbrik eləyirəm səni ürəkdən,
Bu gün Ad Günündür, Mübarək olsun!

Bir səs gəlir qulağıma, uzaqdan,
Bu səs mənə fərəh verir bayaqdan,
Qoruyur o, vətənimi sazaqdan,
Bu gün Ad Günündür, Mübarək olsun!

Səadət həmişə yoldaşın olsun,
Gülüş, həm təbəssüm, qardaşın olsun,
Bütöv Azərbaycan yurddaşın olsun.
Bu gün Ad Günündür, Mübarək olsun!

Görüm bu həyatda səni Yüz yaşa,
Ömrünün günləri dəyməsin daşa,
Parlaq həyatını sevinclə başa,
Bu gün Ad Günündür, Mübarək olsun!

Mən, şairin hədiyyəsi var sənə,
Səadət gətirsin bu bahar sənə,
Rəbbim olsun üstünüzdə yar sənə,
Bu gün Ad Günündür, Mübarək olsun!

İzzətoğlu, dayanma sən uzaqda,
Yaşa sağsa, vətən qalmaz sazaqda,
Dostumuzdan biz də deyək, yazaq da,
Bu gün Ad Günündür, Mübarək olsun!

***02.05.2020***

## UCALA BİLMƏZ

*(Şəhidlərimizə ithafən)*

Sağalmaz yarası Şəhid balanın,
Yüz illər dolanıb keçsə aradan.
Saraylar ucalsa zərli qaladan,
Şəhidin ruhutək ucala bilməz.

Qalxıb qartal təki uca göylərə,
Püskürüb vulkantək, axsa çöllərə,
Özünü ulduztək sayanlar belə,
Şəhidin ruhutək ucala bilməz.

Dünya fəth etsə də kosmosu, ayı,
Nə qədər tikilsə şahlar sarayı,
Deyimlər çoxalıb artsa da sayı,
Şəhidin ruhutək ucala bilməz.

Ədaləti aciz bilib sayanlar,
Özgə torpağına ayaq basanlar,
Şərəf lövhəsində özün asanlar,
Şəhidin ruhutək ucala bilməz.

# İGİD HƏTƏMXAN

*Sumqayıtlı Şəhidimiz, ailənin tək yadigarı (əslən Cəbrayıl rayon Hovuslu kəndindən olan) KAPİTAN HƏTƏMXAN MƏTİ OĞLU QULİYEVƏ ithaf edirəm)*

Vətənim dardadır, deyib Kapitan,
“El-obam, hardadır?!” deyib, Kapitan,
Zabit mundirini geyib Kapitan,
Döyüşə atıldı İgid Hətəmxan.

Vətən dar gündəydi, qalxdı ayağa,
Bir qəhrəman oldu, döndü dayağa,
Sarıldı silaha, üçrəng Bayrağa,
Döyüşə atıldı İgid Hətəmxan.

Aprel döyüşnə sən şahid oldun,
Zəfər döyüşündə sən Şəhid oldun.
Əzmkar ruhunla sən vahid oldun,
Döyüşə atıldı İgid Hətəmxan.

Uşaqlıq illərin keçdi gözümdən,
Ürəyim ağrıdı, getdim özümdən,
Yandım alovuna, keçdim közündən,
Döyüşə atıldı, İgid Hətəmxan.

Atan Məti, Anan Ruqiyyə harda?
Bəs, Fərhad qardaşın, hansı diyarda?!
Vəfalı Xanımın yol gözlər, darda,
Döyüşə atıldı İgid Hətəmxan.

Kəsmək olmayırdı axan qanları,
Əzməyin vaxtıydı həmin "yanlar"ı.
Tanıtdın hamıya qəhrəmanları-
Döyüşə atıldı İgid Hətəmxan.

Dərdini heç kimlə bölə bilmədi,
Zəfəri görmədi, gülə bilmədi,
Dostları göz yaşın silə bilmədi,
Döyüşə atıldı İgid Hətəmxan.

Sən oldun ordumun qüruru, fəxri,
Gül-çiçək, qoxudu vətənin ətri,
Əroğlu, sən bitir, şeiri, sətri,
Döyüşə atıldı İgid Hətəmxan.

## TƏNHA ŞƏHİD ANASINA

*(Şəhidimiz, evin tək oğlu, Maxi Aslanov Bəxtiyar İlqar oğluna, atası İlqar isə 5 il öncə dünyasını dəyişmişdir. Əslən Şuşalı olan Tünzalə müəllimə Naftalan şəhər orta məktəbdə çalışır)*

Evin tək övladı, həm də dayağı,
Azad görmək üçün can Qarabağı,
Basıb sinəsinə üçrəng bayrağı,
Döyüşdü, vuruşdu, İgid Bəxtiyar.

Bu tarix, həm də bir yaddaş əsəri,
Çaldı düşmənimə şanlı zəfəri,
Odlar yurdumuzun igid əsgəri,
Döyüşdü, vuruşdu, İgid Bəxtiyar.

Bəxtiyar ölkəmin, Bəxtiyarısan,
Vətənin Şəhidi, qürür payısan,
Göylərdə ay, ulduz, Tanrı payısan,
Döyüşdü, vuruşdu, İgid Bəxtiyar.

Anan da, vətən də gözləri yolda,
Mələklər yazırdı sağda, həm solda,
Düşmən gizlənmişdi dağlarda kolda,
Döyüşdü, vuruşdu, igid Bəxtiyar.

Müəllimə ana gözləri nəmli,
Bu eli, obası dərdli, ələmli,
Dostları dözməyir, kədərli, qəmli,
Döyüşə yollandı igid Bəxtiyar.

Tarix yazdı səngərlərdə oğullar,
Qırx dörd gündə bitdi neçə nağıllar,
Dünya gördü, bizdə necə oğul var,
Döyüşə yollandı igid Bəxtiyar.

Dərdini heç kimlə bölə bilmədin,
Vətənim dardadır gülə bilmədin,
Ananın göz yaşın silə bilmədin,
Döyüşə yollandı igid Bəxtiyar.

Sən yazdın Murovda şanlı bir tarix,
Vətəni qorumaq, canlı bir tarix,
Əroğlu, yazdığın qanlı bir tarix,
Döyüşə yollandı igid Bəxtiyar.

## ƏSİRLƏRƏ

*(Vətənimizin ərazi bütövlüyü uğrunda itgin düşmüş və əsirlikdə qalan insanlara itihaf edirəm)*

Qollarım qoynumda qalıbdı bağlı,
Bu ürək yaralı, sinəm də dağlı.
Əsirlər zülmətdə, yolları bağlı,
Səsinə səs verək biz əsirlərin.

Yağı düşmən torpağıma göz dikdi,
Vətənimə Araz çayla səd çəkdi.
Bu millətə ayrılığı yad çəkdi.
Səsinə səs verək biz əsirlərin.

Günlər keçir, illər gedir ömürdən,
Əsirlərim qolu bağlı dəmirdən,
Ürəyim qısılır  bu səs-səmirdən,
Səsinə səs verək biz əsirlərin.

Qara yaylıq bağladılar analar,
Başsız qalıb görün neçə balalar.
Dağılıbdı Qarababağda qalalar.
Səsinə səs verək biz əsirlərin.

Mənim ürəyimdə asılıbdı daş,
Çəkməyir ürəyim, ağırdır bu daş,
Əsirlikdə qalan axıtmasın yaş,
Səsinə səs verək biz əsirlərin.

Dözəmmirəm, bu ocağa, bu oda,
Kül olmuşam, sovruluram havada.
Ordumuz da qalib gəlsin davada,
Səsinə səs verək biz əsirlərin.

Göz yaşını axıtmadım de harda?
Solub gözüm, ağarıbdı qara da.
Ədalətin gözləri intizarda,
Səsinə səs verək biz əsirlərin.

## VƏTƏNİMƏ DƏYMƏ

Zaman axarıyla gedir, hey axır,
Zamanın işinə qarışma, dəymə.
Səma buludlanır, yağışlar yağır,
Allahın işinə qarışma, dəymə.

Düşmən torpağımda gör, nələr edir,
Tanrıdan diləyim, millətə dəymə.
Hər zaman Vətənim fikrimdədir,
Yurdsuzam, Ya Rəbbim qəddimi əymə.

Ədalət, içində var Vətən sevdan,
Sevdin öz xalqını, öz millətini.
Ucalsın bayrağın, ey Azərbaycan,
Sevsin vətəndaşın məmləkətini.

## DƏRDİM OLMASAYDI, ŞEİR YAZMAZDIM

Şeirim, bəhrələnibdir dərdimdən,
Hər bir sətri, bəndi, gəlir qəmimdən.
Ardıcıl düzülür söz, qələmimdən,
Dərdim olmasaydı, şeir yazmazdım.

Dostlar, deməyin ki, halım xarabdı,
Yurdum əsir qalıb, xararabalıqdı.
Qəlbimi, yurd dərdi, qəmi alıbdı,
Dərdim olmasaydı, şeir yazmazdım.

Vətən sevgisi var, məndə anamdan,
Yurdum deyə-deyə, köçdü həyatdan.
Mən necə anamı çıxardım yaddan?
Dərdim olmasaydı, şeir yazmazdım.

Ağlayır yudumun, dağı, meşəsi,
Laləsi, nərgizi, tər bənövşəsi.
Ədalətin qəlbi, Vətən qəfəsi,
Dərdim olmasaydı, şeir yazmazdım.

## MÜNDƏRİCAT

Ön söz əvəzi ....................................................................4
Yaşa, Baş Komandan! ....................................................8
Azərbaycana ....................................................................9
Oyanan ruhlar... ..........................................................10
Dünya qocalmır ............................................................12
Azərbaycanım ...............................................................13
İgid əsgər ......................................................................14
Dalğalansın Azərbaycan bayrağı! ...........................15
Rəssam, bir əsər çək ....................................................16
Yaman çətin imiş ...........................................................17
Yaşa, Komandan! .........................................................18
Gördüm ..........................................................................18
Şair deyiləm ki ...............................................................19
Bayramınız mübarək! ...................................................20
Kimə gərəkdir? ..............................................................21
Nədir, əzabım? ...............................................................22
Ötən illərim ....................................................................23
Şair qəlbi kövrək olur ...................................................24
Düzlükdən danışıb yazmağa nə var? ..........................25
Qocalıram ......................................................................26
Ədalət nədir? .................................................................26
Ədalətin saçı ağdı .........................................................27
Gəlişimiz, enişimiz var .................................................27
Nəsimi-650 ....................................................................28
Lal oldum .......................................................................29
Hər üzündə yaşayırıq dünyanın ................................30
Neylərəm? ......................................................................31
Arxada danışıb, gülməyə nə var? ..............................32
Kitabxanaçılara ............................................................33
Kövrəltmə məni ...........................................................34
Gəzərəm səni ................................................................35

Ey gözəl Pəri.............................................................36
Ay qız, amandır..........................................................37
Qadın nədir?...............................................................38
Nəsihət.......................................................................39
Yeddi xallı gözələ.......................................................40
Komandanım var mənim............................................41
Var.............................................................................42
Hovuslum....................................................................43
Döyüşkən əsgərəm.....................................................44
Vətən..........................................................................45
Turan ellər var olsun..................................................46
Vətən həsrəti..............................................................47
Turan harayı...............................................................48
Millətim.......................................................................49
Orda ölüb, o yurdumda qalaydım..............................50
Qarabağdan ilham alaq..............................................52
Yurda özüm gərəyəm.................................................53
Qisas vaxtıdır.............................................................54
Həsrətim qurtarsın......................................................55
Son zəng.....................................................................56
Unuda bilmirəm..........................................................57
Torpağı qaytarın.........................................................58
Vətənsiz yaşamaq… ...................................................59
Şəhid eşqinə...............................................................60
Şəhidlər......................................................................61
Dərdli adamlar............................................................62
Amandır......................................................................63
Yurdsuz yaşamaq çətin..............................................64
Yanır...........................................................................65
Yuxudan ayıldım, qaraldım necə...............................66
Ədalət, silinsin o qara ləkə........................................67
Dərdimin əlacı səndədir, Allah!.................................68
Başa salaq...................................................................69

Hacı Qaraman ocağı ....................................................69
Dünya mənə dar gəlir... ...............................................70
Ürək necə dözsün bu ayrılığa? ...................................71
O yurda tərəf...............................................................72
Solub qara gözlərim.....................................................73
Qərib adamlar ............................................................74
Qalmışam naçar ..........................................................75
Qəmli  dağlarım...........................................................76
Ulu yaradan ................................................................77
Yaşa, Vətən! ...............................................................78
Qarabağ şeirlə qayıtmaz, qardaş! ...............................79
Gedim hara? ...............................................................80
Göz yaşı.......................................................................81
Oyan! ..........................................................................82
Cəbrayıl elindən, obasındanam ..................................83
Dünya .........................................................................84
Ədalətin sözü var.........................................................85
Qarabağın qara bəxti ..................................................86
Dözmürəm...................................................................87
Yoxdu .........................................................................88
Çəkirəm ......................................................................89
Sözüm qalsın ...............................................................90
Şair fəryadı .................................................................91
Yurdsuz bir şairəm, məni deyirlər...............................92
Yurdum görən harda qaldı?.........................................93
Odunla yanıram, dünya! .............................................94
Yatmaram ...................................................................95
Ürək buna necə dözər? ...............................................96
Düşməni əzəm, öləm ...................................................97
Solub qara gözlərim.....................................................98
Cəbrayıl ......................................................................99
İşğal olub ..................................................................100
Pay-qismətim beləymiş… ..........................................102

Vətənin halı ..........103
Ədalət dözməyib dərdlərə düşür..........104
Dünyamız gülə ..........105
Görəmmədim..........106
Zəfər çalaq baharda ..........107
Yozmaladı... ..........108
Gedim yurda, o dağlara ..........109
Ədaləti gəzirəm ..........110
Qələbə sözü ..........110
Alaq o dağı... ..........111
Söz sarayım var ..........112
Yoxmu?!..........113
Dərd gəzir məni ..........114
Ölməmişəm... ..........115
Kimə gərək? ..........116
Dözürəm ..........117
Qardaşdır Təbriz..........118
Pirlərim..........119
Dağlar... ..........120
Saz havası..........121
De necə dözüm? ..........122
Unutmayaq, o qara günü! ..........123
Görmədim..........124
Qan yağır ..........125
Qorxun! ..........125
Oxu, bülbül..........126
Xan Arazım ..........127
Fağıra bir bax..........128
Ay günəşim, ay, ulduzum..........129
Türkün səsi ..........130
Ana dilim..........131
Saf eşqimə görə... ..........132

Yanan deyiləm....................132
Xocalı naləsi....................133
"Allah adamı"....................134
Bilmədim....................135
Bir tarix yazırsan....................136
Şükr eylə....................136
Gəl, "Ədalət işığına"....................137
Hara gedir dövran....................137
Çal, oxu!....................138
Nə deyim?....................139
Ədalət carçısı, sözüyəm şair....................140
Sevəsən....................140
Oğluma....................141
Haray....................142
Qardaşıma....................144
Oxu, Təranə xanım!....................145
"Dostlara"....................146
Ana laylası....................147
Şəhid bacısı....................148
Şəhid leytenant Ruslana....................149
Şəhid Asiman....................150
Xocalı faciəsi....................151
Əsirlərim dardadır....................152
Ad gününüz mübarək!....................154
Ucala bilməz....................155
İgid Hətəmxan....................156
Tənha Şəhid anasına....................158
Əsirlərə....................160
Vətənimə dəymə....................161
Dərdim olmasaydı, şeir yazmazdım....................162

# Ədalət Əroğlu

# OYANAN RUHLAR...


***Nəşriyyatın direktoru:*** ***Ceyhun Xəlilov***
*Texniki redaktor:* *Mətanət Qafarova*
*Korrektor:* *Reyhan Şükürova*
*Dizayner:* *Aygün Fərzəliyeva*
*Kitabın tərtibatı:* *Zülfiyyə Əliyeva*
*Operatorlar:* *Zeynəb Qafarova*
*Sona Xəlilova*

Azəri POLİQRAFİYA

*Çapa imzalanmışdır: 04.04.2021*
*Kağız formatı 84x108. Ofset çapı 1/16.*
*Fiziki ç.10,5. Tiraj:200*
*Ünvan: Sumqayıt şəh., 13-cü mkr. Niyazi küç 234.*
*E-mail: bilik-2008@mail.ru*
*Tel.: (012) 408 39 51; (018) 656 50 42*